# ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 53 (9508) 8 mart 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Xoşbəxt qadın güclü cəmiyyətin təməlidir



Bu gün Azərbaycan qadını yeni dövrdə üzərinə düşən vəzifələri yerinə yetirərək ölkədə gedən çoxşaxəli inkişaf proseslərinə öz töhfələrini verir. Bu siyasətə dəstək olmaqla Prezident İlham Əliyevin Azərbaycana qazandırdığı nailiyyətlərin, qələbələrin məzmununda özünün, ailəsinin, övladlarının gələcəyinə ünvanlanmış arzularının addım-addım reallığa çevrildiyini görür. Cəmiyyətdə əhəmiyyətli bir qüvvə kimi çıxış edən Azərbaycan qadınının Prezident İlham Əliyev şəxsiyyətinə, onun həyata keçirdiyi siyasətə inam və etimadının əsasında həm də bu həqiqət dayanır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qadın siyasəti yeni yüksəliş mərhələsinə qədəm qoymuş, ölkəmiz bu sahədə də dünyanın öncül, nümunəvi dövlətləri sırasında qərarlaşmışdır. Dövlət başçısının həyata keçirdiyi siyasətdə gender bərabərliyi məsələləri xüsusi yer tutur. Qadın hüquqlarının müdafiəsi, xanımlarımız üçün yaradılmış imkanların zaman-zaman daha da genişləndirilməsi Prezidentin həyata keçirdiyi dövlət siyasətinin mühüm istiqamətlərindən olmuşdur. 2006-cı ildə Prezidentin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bunun bariz bir nümunəsi olmuşdur. Bu qurumun fəaliyyəti ölkəmizdə qadın fəallığına böyük təkan vermiş, həyata keçirilən sosialyönümlü dövlət siyasətinə uyğun olaraq onların işlə təmin olunması, məşğulluq strategiyasının həyata keçirilməsi, gender bərabərliyinin qorunması, uşaq hüquqlarının müdafiəsi və s. istiqamətlər üzrə mühüm nailiyyətlər əldə edilmişdir.

→ 5

## Prezident İlham Əliyev Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda "8 Mart - Beynəlxalq Qadınlar Günü" sözləri yer alıb.




## Mərhəmətin zərif rəmzi

Azərbaycan qadını ölkənin bütün ali orqanlarında əzmlə, məsuliyyətlə çalışır və dəyərli töhfələr verir. Bunun ən bariz nümunəsi isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Azərbaycanın davamlı inkişafı, dövlətçiliyimizin, milli dəyərlərimizin qorunması istiqamətində misilsiz xidmətlər göstərən, xalqımızın xoşbəxt və firavan yaşamasını həyat kredosuna çevirən Birinci vitse-prezident həm də beynəlxalq miqyasda Azərbaycan qadınının parlaq obrazıdır.

→ 4

## COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası keçirilib

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclasındakı çıxışında və "Euronews" televiziyasına müsahibəsində COP29 Sədrliyinin gündəliyinin əsas istiqamətlərini və çərçivəsini müəyyən etdiyini bildirdi. Samir Nuriyev bu tezislərdə əks olunduğu kimi, xüsusilə neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli yanaşmanın və bu dövlətlərin fəaliyyətlərinin onların ətraf mühit məsələlərinə verdiyi töhfə müqabilində qiymətləndirilməsinin vacibliyini vurğuladı. Təşkilat Komitəsinin sədri bu günlərdə Azərbaycanın 2020-ci il ilə müqayisədə 2030-cu ilədək metan emissiyalarının həcminin 30 faiz azaldılması hədəfini ehtiva edən "Qlobal Metan Vədi"nə qoşulduğunu bildirdi.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının artıq təsdiqləndiyini, COP29-un keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlandığını diqqətə çatdıran Təşkilat Komitəsinin sədri hər iki Tədbirlər Planı arasında uzlaşmanın təmin edilməsinin önəmini vurğuladı.




→ 3

## Milli maraqlara zidd olan əməllərin qarşısı qətiyyətlə alınır

Uzun illər ərzində xarici qüvvələrin Azərbaycanda qurduqları şəbəkə vasitəsilə qarışıqlıq yaratmaq cəhdləri uğursuzluğa düçar olub. Belə çirkin metodlarla daxili sabitliyə xələl gətirmək cəhdlərinin qarşısının vaxtında alınması ölkəmizin daim artan gücünün, qüdrətinin müsbət göstəricisidir.

Azərbaycan xalqının milli maraqlarına, Azərbaycan dövlətinin əleyhinə qarşı fəaliyyət göstərən "Toplum TV" kimi şəbəkələrin müəyyən edilməsi və neytrallaşdırılması olduqca vaxtında atılmış bir addımdır. Bundan sonra da ölkə daxilində sabitliyi, əmin-amanlığı pozmağa yönələn bütün cəhdlərin qarşısı qətiyyətlə alınacaq. Xalqımızın milli maraqlarına zidd olan pozuculuq əməlləri törədənlər kimliyindən asılı olmadan layiqli cəzalarını almalıdırlar.

→ 9

## Azərbaycan "yaşıl enerji"nin həm də tranzitini həyata keçirəcək

### Özbəkistan və Qazaxıstan bərpaolunan enerjilərini ölkəmiz üzərindən ixrac edəcəklər

Azərbaycanın və Qazaxıstanın energetika nazirlikləri arasında enerji sahəsində strateji tərəfdaşlığa dair saziş layihəsinin hazırlanması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb. Eləcə də Qazaxıstan neftinin Azərbaycandan keçməklə çoxistiqamətli tranziti üzrə praktiki addımlar atılması, bu xüsusda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri ilə illik 1,5 milyon ton neftin nəqli ilə bağlı razılaşmanın həyata keçirilməsi, tədarük həcminin tədricən artırılması istiqamətində



SOCAR və "KazMunayQaz" arasında əməkdaşlıq yüksək qiymətləndirilib.

Deyilənlərə onu əlavə edək ki, Qazaxıstan BTC layihəsinin həyata keçirilməsində Azərbaycanı daim dəstəkləyib. O cümlədən 1999-cu ildə İstanbul şəhərində kəmərin marşrutunu müəyyənləşdirən sənədi Azərbaycan, Cürcüstan, Türkiyə, ABŞ prezidentləri ilə birgə Qazaxıstanın dövlət başçısı da imzalamışdı. Bu kəmərə xeyli müddətdir Qazaxıstan nefti də vurulur.

→ 11

## Qərbin antiazərbaycançı şəbəkəsi ifşa olunur

Qərb institutları və onların maliyyələşdirdiyi qurumlar Azərbaycana qarşı yenə qarayaxma kampaniyasına başlayıblar: "Azərbaycanı guya insan hüquq və azadlıqlarının pozulması, mediaya qarşı təqib siyasətinin həyata keçirilməsi və digər bu kimi məsələlərdə ittiham edirlər. Lakin gün kimi aydındır ki, bu ittihamların heç bir əsası yoxdur. Əvvəla ona görə ki, demokratik inkişaf yolunu seçmiş və bu yolda inamlı addımlarla irəliləyən Azərbaycan belə ucuz vasitələrə ehtiyac duymur. İkincisi isə, demokratiya bir prosesdir, yəni orada son nöqtə yoxdur. Demokratiyanın zirvəsində olduğunu iddia edən dövlətlər birmənalı olaraq yanılır və dünya ictimaiyyətini də yanıltmağa çalışırlar. Sadəcə, demokratiya yolunu seçən dövlətlər hər dəfə növbəti mərhələyə keçid edir və prosesi davam etdirirlər. Azərbaycan da demokratik inkişaf yolu ilə gedir və bu istiqamətdə çox ciddi islahatlar həyata keçirir".

→ 9

## Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Emin Zamin oğlu Hüseynov Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

2. "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 dekabr tarixli 3022 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1438 (Cild I) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında Əsasnamə

1. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin (bundan sonra - Xidmət) rəsmi emblemi Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın rəmzidir. O, Xidmətin hər bir əməkdaşına Xidmətin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə öz xidməti vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək borcunu xatırladır.

2. Xidmətin rəsmi emblemi Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın əməkdaşlarının, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Xidmətə mənsubiyyətini bildirən nişandır.

3. Xidmətin rəsmi emblemi onun hərbi qulluqçularının geyim formasında və fərqlənmə nişanlarında yerləşdirilir. Xidmətin rəsmi emblemi onun blanklarında və inzibati binalarının adı göstərilən lövhələrində də yerləşdirilə bilər.

4. Xidmətin rəsmi embleminin təsvirindən istifadəyə aşağıdakı hallarda yol verilir:

4.1. Xidmətin çap məhsullarında, kino, video və fotomateriallarında;

4.2. Xidmətin sifarişi ilə hazırlanan reklam-informasiya məhsullarında (bukletlər, təqvimlər, nişanlar, vımpellər, saatlar, medalyonlar, dəftərxana ləvazimatları, suvenirlər və digər məhsullar).

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin Təsviri

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi qızılı haşiyəli qara dairə formasındadır. Dairənin kənarında qövs boyunca qızılı hərflərlə yuxarıda "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN", aşağıda "TƏHLÜKƏSİZLİK XİDMƏTİ" sözləri yazılmışdır. "AZƏRBAYCAN" sözündən əvvəl və "PREZİDENTİNİN" sözündən sonra qızılı rəngdə səkkizguşəli ulduz təsvir edilmişdir.

Dairənin mərkəzində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri verilmişdir. Həmin təsvirin sol və sağ tərəflərində iti ucları aşağıda bir-biri ilə birləşən və kəsici tərəfləri dairənin kənarına baxan qızılı rəngdə iki ədəd qılınc yerləşir (rəsmi emblemin şəkli əlavə edilir).

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin təsviri"nə əlavə




## Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Karbon emissiyalarının azaldılmasında, enerji səmərəliliyinin yüksəldilməsində və nəqliyyat sənayesində innovasiyaların təşviqində elektrik mühərrikli nəqliyyat vasitələrinin rolunu nəzərə alaraq, dayanıqlı və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması daha təmiz və dayanıqlı nəqliyyat sisteminə keçidi sürətləndirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan elektrik nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsini, zəruri infrastrukturun inkişafını, habelə ümumi nəqliyyat sisteminə inteqrasiyanı təmin edən normativ hüquqi bazanın formalaşdırılması zəruridir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi, həmin məntəqələrin yaradılması işlərinə sahibkarlıq subyektlərinin cəlb edilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Energetika Nazirliyinin, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerləri bir ay müddətində müəyyən etsin;

1.3. elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması, zəruri infrastrukturun yaradılması, habelə həmin məntəqələrin dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən müvafiq tədbirlər görülməsini təmin etsin;

1.4. bu Sərəncamın 1.3-cü bəndində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında cari ilin və növbəti ilin dövlət büdcəsindən müvafiq vəsait ayrılması üçün tədbirlər görsün;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

## "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli və "Hədəfli maliyyə sanksiyaları haqqında" 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 716 (Cild I) 2.3-cü bəndinə "Maliyyə Nazirliyi" sözlərindən sonra "və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi" sözləri əlavə olunsun və həmin bənddə "keçirir" sözü "keçirirlər" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 7.9-3-cü bəndindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin bəndə "maliyyələşdirilməsinə qarşı" sözlərindən sonra ", o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.8-1-ci bənddən və 5.8-2.2-ci yarımbənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

3.2. 5.8-2.1-ci yarımbənddən birinci halda "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin yarımbənddə "pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi" sözləri "əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.32-1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"9.32-1. notariuslara və qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı, o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı qanunla nəzərdə tutulmuş qaydada və hallarda nəzarət orqanının funksiyalarını həyata keçirmək;".

5. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.29-1-ci bəndi ləğv edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə VII - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti haqqında Əsasnamə"nin 8.2-1-ci bəndi ləğv edilsin.

6. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132 (Cild I) 1.1-ci bəndindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin bənddə "Azərbaycan Respublikası Qanununun" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının" sözləri ilə, "həmin Qanunla" sözləri "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə" sözləri ilə əvəz edilsin.

7. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1175 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2093 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında və preambulada "461-VQD" sözləri "461-VQ" sözləri ilə əvəz edilsin;

7.2. 3-cü hissədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin hissədə "Azərbaycan Respublikasının Qanununa" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 963 (Cild I) 2-ci hissəsindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin hissədə "siyasətin" sözü "dövlət siyasətinin" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.0.3-cü yarımbənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

9.2. 3.0.68-ci yarımbənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin yarımbənddə "monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının" sözləri "öhdəlik daşıyan şəxslərin, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının)" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I) ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın "Prioritet 3. Maliyyə şəffaflığının təmin edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər" hissəsinin adından, 3.4-cü bəndinin "Tədbirin adı", "İlkin nəticə", "Yekun nəticə" sütunlarından və 3.5-ci bəndinin "Tədbirin adı" sütunundan "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın.

11. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

11.1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 31.8-ci maddəsinə uyğun olaraq, illik maliyyə hesabatının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməməsinə görə inzibati məsuliyyəti müəyyən edən normativ hüquqi aktın layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

## Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Atamoğlanova Natəvan Dəmirçi qızı
Behbudova Gülşən Behbud qızı
Əhmədova Kəhlik Talış qızı
Əliyeva Gültəkin Budaq qızı
Haqverdiyeva Sevda Haqverdi qızı
Həsənova İlhamə Hüseyn qızı
Hüseynova Mariya Pavlovna
Hüseynova Reyhan Kamranovna
Hüseynova Zərifə Bəşir qızı
Mehrəliyeva Sevil Əli qızı
Məsimova Taliyə Fəxrəddin qızı
Ramazanova Bədyalcamal Süleyman qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

## Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Mustafa oğlu Yusubov Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sloveniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza davamlı tərəqqi, inkişaf arzu edirəm.

Mən çox məmnunam ki, Sloveniya və Azərbaycan dostluq münasibətlərinə malikdir. Əminəm ki, bu münasibətlər daha da dərinləşməkdə davam edəcəkdir.

Biz mübahisələrin danışıqlar yolu ilə həlli və ən mühüm çağırış olan qlobal iqlim böhranının aradan qaldırılması, multilateralizm kimi ortaq maraqları paylaşırıq. İnanıram ki, Siz bu sahədə, xüsusilə Bakının COP29-a evsahibliyi etməsi fonunda ölkənizin və xalqınızın hərtərəfli inkişafını təmin etmək naminə səylərinizi davam etdirəcəksiniz.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan xalqının təhlükəsizliyinin, iqtisadi inkişafının və əmin-amanlığının təmin olunmasında Sizə yeni böyük nailiyyətlər arzu edirəm.

Əminəm ki, yenidən Prezident seçilməyiniz ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcək və Ukrayna-Azərbaycan əməkdaşlığını yeni dinamik səviyyəyə çıxaracaq.

Beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində iki dövlətin müstəqilliyi və ərazi bütövlüyünə Ukraynanın və Azərbaycanın qarşılıqlı dəstəyi olduqca vacibdir.

Bu gün Ukrayna xalqı Rusiyaya qarşı mübarizədə öz azadlığını müdafiə edərkən Azərbaycan Respublikasının həmrəyliyi xüsusi əhəmiyyət kəsb edir. Biz humanitar yardıma, Rusiya ilə müharibədən zərər çəkmiş şəhərlərin infrastrukturunun yenidən qurulması, azad edilmiş Ukrayna ərazilərinin minalardan təmizlənməsi prosesində iştiraka görə minnətdarıq.

Mən Ukrayna-Azərbaycan əməkdaşlığına mühüm dinamika verən şəxsi konstruktiv və səmimi dialoqumuzu yüksək qiymətləndirirəm. Əminəm ki, hörmət və etimada əsaslanan strateji tərəfdaşlıq bundan sonra da möhkəmlənəcəkdir.

Mən Azərbaycanın Ukraynanın sülh formulunun implementasiyasına cəlb olunmasına və İsveçrədə keçiriləcək ilk Sülh Sammitində iştirakınıza ümid edirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, enerji və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə və xalqınıza təbriklərimi, ən xoş arzularımı çatdırıram.

Qarşıdakı illərdə Sizinlə və hökumətinizlə işləməyi səbirsizliklə gözləyirəm.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Yeni səlahiyyət müddətinizdə zati-alinizə daha böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

***Mette FREDERİKSEN,***
***Danimarkanın Baş naziri***

# Baş nazir Əli Əsədov Dünya Bankının vitse-prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 7-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud olduğu bildirilib. Ötən müddət ərzində müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirilməsindən məmnunluq ifadə olunub.

Baş nazir Azərbaycanda dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Eyni zamanda Azərbaycanın "yaşıl enerji"yə keçid strategiyası, həyata keçirilən enerji səmərəliliyi və bərpaolunan enerji layihələri, ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə verdiyi töhfəsi haqqında söhbət açılıb.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında bir çox istiqamətlərdə tərəfdaşlığın perspektivləri, əməkdaşlıq gündəliyində duran prioritet layihələrin icrası, Dünya Bankının yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlanması, habelə cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların 7-ci görüşü keçirilib

**Martın 7-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın yeddinci görüşü keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər delimitasiya məsələləri üzrə fikir mübadiləsi aparıb, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin iki ölkə arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılmasına başlayıb, habelə delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.

Tərəflər komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırmasını ən qısa zamanda başa çatdırmaq barədə sövdələşiblər.

Onlar həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası olub



**Prezident İlham Əliyevin 2017-ci il 17 mart tarixli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində ötən il ərzində görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov 2023-cü il ərzində qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində görülmüş işlər və əldə edilmiş nailiyyətlər barədə ətraflı məlumat verib.

Komissiyanın sədri son illər dövlət tərəfindən həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olduğunu qeyd edib.

Komissiyanın fəaliyyəti dövründə əmək müqaviləsi bildirişlərinin sayında 41,8 faiz, fiziki şəxs fərdi sahibkarların sayında 66,4 faiz, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz əldə etmiş sabit vergi ödəyicilərinin sayında isə 7,5 dəfədən çox artımın qeydə alındığı vurğulanıb.

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Qanunvericilik və idarəetmə üzrə işçi qrupunun rəhbəri Anar Əliyevin əmək münasibətlərinə və bu sahədə qeyri-formal məşğulluğun qarşısının alınması üçün hazırlanmış qanunvericilik layihələrinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini, Qeyri-formal məşğulluq nəticəsində yaranan gəlirlərin gizlədilməsinin səbəblərinin araşdırılması üzrə işçi qrupun rəhbəri İlkin Vəliyevin qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması sahəsində görülmüş tədbirlər və vergi nəzarəti tədbirlərinə dair məruzələri dinlənilib.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi aqrar sahədə qeyri-formal məşğulluğun əsas xüsusiyyətləri, qlobal statistik göstəricilər, mövsümi (müvəqqəti) məşğulluqla əlaqədar münasibətlərin tənzimlənməsi mexanizmləri ilə bağlı dünya təcrübəsi və aqrar sahədə çalışan mövsümi işçilər üzrə tənzimlənmənin təkmilləşdirilməsi üzrə təqdimat edib.

"Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar təqdim ediləcək hesabatın layihəsi müzakirə olunaraq qəbul edilib.

Sonda komissiyanın sədri tərəfindən qarşıda duran vəzifələrlə bağlı, o cümlədən ölkədə qeyri-formal məşğulluq sahəsində qanunvericilik aktlarının təkmilləşdirilməsinə, nəzarət tədbirlərinin gücləndirilməsinə, çevik mexanizmlər vasitəsilə işəgötürənlər və işçiləri əmək müqaviləsi bağlamağa stimullaşdıran tədbirlərin, həmçinin maarifləndirici tədbirlərin artırılmasına dair tapşırıqlar verilib.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası keçirilib



**Martın 7-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq, ilk iclasdan ötən müddət ərzində COP29-a hazırlıq çərçivəsində görülmüş işləri qeyd etdi. Samir Nuriyev dövlətimizin başçısının sərəncamı ilə Təşkilat Komitəsinin tərkibinin daha da genişləndirildiyini, Milli Məclisin deputatlarının və vətəndaş cəmiyyəti nümayəndələrinin təmsilçiliyi ilə inklüzivliyin təmin olunduğunu diqqətə çatdırdı.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclasındakı çıxışında və "Euronews" televiziyasına müsahibəsində COP29 Sədrliyinin gündəliyinin əsas istiqamətlərini və çərçivəsini müəyyən etdiyini bildirdi. Samir Nuriyev bu tezislərdə əks olunduğu kimi, xüsusilə neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli yanaşmanın və bu dövlətlərin fəaliyyətlərinin onların ətraf mühit məsələlərinə verdiyi töhfə müqabilində qiymətləndirilməsinin vacibliyini vurğuladı. Təşkilat Komitəsinin sədri bu günlərdə Azərbaycanın 2020-ci il ilə müqayisədə 2030-cu ilədək metan emissiyalarının həcminin 30 faiz azaldılması hədəfini ehtiva edən "Qlobal Metan Vədi"nə qoşulduğunu bildirdi.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının artıq təsdiqləndiyini, COP29-un keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlandığını diqqətə çatdıran Təşkilat Komitəsinin sədri hər iki Tədbirlər Planı arasında uzlaşmanın təmin edilməsinin önəmini vurğuladı.

Samir Nuriyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi ilə aparılan işlərə toxunaraq, ölkəmizin hazırlıq səviyyəsinin BMT tərəfindən müsbət qiymətləndirildiyini qeyd etdi.

Təşkilat Komitəsinin sədri COP29-da Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrlik təcrübəsini və digər beynəlxalq təşkilatlarda fəal təmsil olunmasını nəzərə alaraq, ölkəmizin qlobal Cənub və qlobal Şimal arasında körpü rolunu oynamağa qadir olduğunu və COP29-da qlobal həmrəyliyə və konsensusa nail olunması istiqamətində səylər göstərəcəyini bildirdi.

Samir Nuriyev həmçinin Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Azərbaycan və Braziliya arasında COP-la bağlı "Üçlük" mexanizminin yaradılmasının təqdirəlayiq addım olduğunu bildirdi.

Daha sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək ölkəmizin COP29-a sədrliyindən irəli gələn məsələlərin müzakirəsi məqsədilə Türkiyə, Almaniya, BƏƏ və Keniyaya səfərləri, xarici ölkələrin və beynəlxalq təşkilatların iqlim məsələlərinə məsul rəsmi şəxsləri ilə keçirdiyi görüşlər barədə məlumat verdi. Muxtar Babayev bu mötəbər tədbirə hazırlıq prosesi çərçivəsində daha çox səfər və görüşün təşkil olunacağını qeyd edərək, növbəti səfərin Çinə olacağını diqqətə çatdırdı.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29-a hazırlıq prosesində nəqliyyat məsələlərinin həlli istiqamətində atılan addımlar barədə məlumat verdi.

Xarici işlər nazirinin müavini, COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev Azərbaycanın COP29 prioritetləri və təşəbbüsləri, müxtəlif tərəf müqabilləri ilə təmaslar barədə danışdı.

COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri və hazırlıq işləri barədə məlumat verdi.

Milli Məclisin deputatı Nigar Arpadarai iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli çempion kimi öz fəaliyyəti barədə danışdı.

Deputat Fatma Yıldırım parlament diplomatiyası və iqlim dəyişiklikləri, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin COP29-la bağlı fəaliyyəti barədə məlumat verdi.

Gənc İqlim çempionu Leyla Həsənova bu statusda keçirdiyi görüşlər və apardığı fəaliyyət barədə məlumat verdi.

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi Pərvanə Vəliyeva COP29-da vətəndaş cəmiyyətinin rolu barədə danışaraq, vətəndaş cəmiyyəti nümayəndələrinin də Təşkilat Komitəsinə daxil edilməsinin yüksək qiymətləndirildiyini, milli və beynəlxalq QHT-lər, özəl və dövlət sektorlarının nümayəndələrinin birgə əməkdaşlığının təqdirəlayiq olduğunu bildirdilər.

İclasın sonunda COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verildi.

# Azərbaycan-Türkiyə əməkdaşlıq gündəliyinin perspektivləri müzakirə olunub



Martın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türkiyənin xarici işlər nazirinin müavini Yasin Ekrem Serim ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi ətrafında fikir mübadiləsi aparılıb.

Ölkələrimizin bütün səviyyələrdə strateji müttəfiqlik münasibətlərinin daha da genişləndirilməsi istiqamətində səylərdən məmnunluq ifadə olunub. Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, nəqliyyat və kommunikasiya, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə daha da genişləndirilməsinin vacibliyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Antalya Diplomatiya Forumunun yüksək səviyyədə təşkili ilə bağlı təəssüratlarını bölüşüb, qardaş Türkiyənin diplomatik uğurları və diplomatik təmsilçiliklərinin sayına görə dünyada üçüncü yerə yüksəlməsi ilə fəxr etdiyini bildirib. Azərbaycan-Türkiyə Universitetinin yaradılması istiqamətində qərarın iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı daha da dərinləşdirəcəyini diqqətə çatdırıb.

Görüşdə nazir Ceyhun Bayramov qarşı tərəfi Azərbaycanla Ermənistan arasında sülh prosesi istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.

Nazir bölgədə sülh və sabitliyin bərqərar olması üçün Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialardan əl çəkməsinin vacibliyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Rusiya ilə ticarət dövriyyəsi dinamik artır

**Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikovla görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə iqtisadi-ticarət əməkdaşlığının aktual məsələləri müzakirə edilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın Rusiya ilə iqtisadi əlaqələrin inkişafına önəm verdiyini vurğulayıb. Ölkələrimiz arasında imzalanmış 260-dan çox sənədin münasibətlərimizin çoxistiqamətli şəkildə genişləndirilməsi üçün möhkəm hüquqi baza yaratdığı vurğulanıb. Bildirilib ki, Azərbaycanın qeyri-neft ixracatında ən böyük tərəfdaşı olan Rusiya ilə ticarət dövriyyəsi dinamik artır. 2023-cü ildə Rusiya ilə ticarət dövriyyəsinin həcmi təxminən 4,5 milyard ABŞ dolları təşkil edib. 2022-ci illə müqayisədə ötən il qonşu ölkə ilə ticarət dövriyyəsi 17 faiz artıb. Rusiya ilə iqtisadi əlaqələrin güclənməsi fonunda ölkələrimizin işgüzar dairələrinin tərəfdaşlıq münasibətləri də genişlənir. Mövcud iqtisadi əməkdaşlıq potensialının reallaşdırılması ticarət dövriyyəsinin həcmini daha da artıra bilər.

Qeyd olunub ki, Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları biznes dairələri arasında qarşılıqlı faydalı işbirliyinin qurulmasında mühüm platformadır. Ölkəmizdə yaradılmış inklüziv biznes mühiti barədə məlumat verilib. Qeyd olunub ki, sahibkarlar sənaye zonaları, Ələt Azad İqtisadi Zonası, işğaldan azad edilmiş ərazilərimizdə təklif olunan biznes imkanlarından yararlana bilərlər. Diqqətə çatdırılıb ki, Rusiya ilə ticarət, nəqliyyat, sənaye, turizm, ətraf mühitin qorunması, kənd təsərrüfatı, gömrük və digər istiqamətlər üzrə tərəfdaşlığın inkişafı üçün böyük potensial var.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Reşetnikov Azərbaycanla iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən qarşılıqlı ticarətin artan tendensiyası, birgə istehsal və digər sahələr üzrə səmərəli əməkdaşlığa dair göstəriciləri müsbət qiymətləndirib. Vurğulanıb ki, qeyri-neft sənayesi üzrə birgə layihələr uğurla həyata keçirilir. Nümayəndə heyətləri arasında mütəmadi olaraq keçirilən görüşlərin və tədbirlərin əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynadığı qeyd edilib. Maksim Reşetnikov tərəfdaşlığın inkişaf etdirilməsi imkanları və bu sahədə təşəbbüslər haqqında düşüncələrini bölüşüb.

Görüşdə Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə Yol Xəritəsinin icrası ilə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər ticarət, nəqliyyat, biznes dairələri arasında əlaqələrin gücləndirilməsi, əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsi və digər məsələlər haqqında müzakirələr aparıblar.

## 8 Mart Beynəlxalq Qadınlar Günüdür



# Mərhəmətin zərif rəmzi

**Bütün dünyada olduğu kimi, Azərbaycanda da 8 Mart Beynəlxalq Qadınlar Günü qeyd edilir. Bu, Azərbaycan qadınına olan hörmət və ehtiram nümunəsidir.**

Ümumiyyətlə, tarixinin ən qüdrətli Azərbaycanında zəriflik və gözəllik rəmzi hesab olunan qadınlara xüsusi diqqət göstərilib. Sarsılmaz iradə, mətanət, əzmkarlıq nümunəsi olan qadınlarımız həm də istedad, zəka və zəhmətin birlikdə necə xariqələr yaratdığını fəaliyyətlərində təcəssüm etdiriblər. Azərbaycan qadını tarix boyu müqəddəs ana şərəfini uca tutaraq mübarizliyi ilə tanınıb, ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edib, dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirib.

Azərbaycan qadını ölkənin bütün ali orqanlarında əzmlə, məsuliyyətlə çalışır və dəyərli töhfələr verir. Bunun ən bariz nümunəsi isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Azərbaycanın davamlı inkişafı, dövlətçiliyimizin, milli dəyərlərimizin qorunması istiqamətində misilsiz xidmətlər göstərən, xalqımızın xoşbəxt və firavan yaşamasını həyat kredosuna çevirən Birinci vitse-prezident həm də beynəlxalq miqyasda Azərbaycan qadınının parlaq obrazıdır.

### Nəciblik, xeyirxahlıq mücəssəməsi

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hərtərəfli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Mehriban xanım Əliyevanın hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü işlər əsl örnəkdir. Ölkənin "Yumşaq güc" siyasətinin təcəssümü olan Mehriban xanım Əliyevanın humanitar layihələri ölkəmizə yeni dostlar qazandırır.

Mehriban xanım Əliyevanın xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir, prezidenti olduğu Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və təbliğidir. Ölkənin Birinci vitse-prezidentinin rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir.

Xoşniyyətli əməlləri ilə adını şanlı tariximizə qızıl hərflərlə yazdırmağa müvəffəq olan Mehriban xanım Əliyevanın ömür kitabına yazılanlar həqiqətən də bənzərsizdir. Son 20 ildə ölkəmizdə qadın hərəkatının geniş vüsət almasında, xanımlarımızın nəcib və xeyirxah məqsədlər naminə sistemli və ardıcıl fəaliyyətinin genişlənməsində Mehriban xanım Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər məhz onun şəxsiyyətində daha parlaq təcəssümünü tapır.

Mehriban xanım Əliyeva uşaqların böyük dostu, "mənəvi anası" və kimsəsizlərin ən böyük hamisidir. Qayğıya ehtiyacı olanlara hər zaman sevinc hissləri yaşatdığına görə özünü də xoşbəxt sayır. Müsahibələrinin birində bu məqama toxunan birinci xanım deyib: "Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".

Həyatının mənasını insanlara təmənnasız köməkdə, xeyirxah və nəcib əməllərdə axtaran Mehriban xanımın özünün də söylədiyi kimi, başqalarına yaxşılıq etmək, mərhəmət göstərmək onun ən ülvi insani keyfiyyətinə çevrilib. Onun xoşməramlı fəaliyyətinin kökündə təmənnasızlıq, səmimilik dayanıb. İnsan öz xeyirxah əməlləri ilə yadda qalır. Mehriban Əliyeva da nəcib əməlləri ilə insanların qəlbində özünəməxsus yer tutub.

"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".

Bu dəyərli fikirlərin müəllifi də hörmətli Mehriban xanım Əliyevadır. Ölkənin birinci xanımı deyir ki, bu həyatda yalnız öz obrazını oynamalı, öz əməllərinlə iz qoymalısan. Göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" kəlamını Mehriban xanım Əliyeva müdrikliklə, həm də müdrikə sədaqət kimi yaşadır. Bunun nəticəsidir ki, Mehriban xanım Əliyevanın xarakteri vətənpərvərlik, xalqa, torpağa, dövlətçiliyə qədərsiz məhəbbət duyğularının vəhdətində bu səviyyədə formalaşıb.

### Bacarıqlı siyasətçi, sadiq silahdaş

Artıq 7 ildir ki, Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi uğurla fəaliyyət göstərir. Onun rəhbərliyi altında çoxsaylı layihələr reallaşıb, ümumiyyətlə, ölkə həyatının elə bir sahəsi olmayıb ki, diqqətindən kənarda qalsın.

Etiraf etməliyik ki, Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamına əsasən, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması heç də təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həmin zaman həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq ölkə daxilində və beynəlxalq arenada mühüm layihələr həyata keçirirdi. Milli Məclisin deputatı olduğu zamanlar mütəmadi olaraq seçicilərlə görüşlər keçirir, onların qayğıları ilə maraqlanır, rəy və təkliflərini öyrənib, sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görürdü. Seçicilərin dərin hörmət və rəğbətini qazanan Mehriban xanım Əliyeva parlamentdə dövlətimizin və xalqımızın maraqlarından çıxış edərək bir sıra vacib qanunların qəbul olunmasında yaxından iştirak edirdi. Bununla bərabər, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində həyata keçirdiyi layihələr bu istiqamətlərin inkişafına əvəzsiz töhfə verirdi. Onun təşəbbüsü ilə reallaşan amnistiya aktları yüz minlərlə ailəyə sevinc bəxş edib. Həmçinin Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur, bu layihələr Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirir, ölkəmizin qədim mədəni-tarixi köklərə malik olduğunu sübuta yetirirdi.

Birinci xanım təkcə ölkə daxilində yox, dünya miqyasında məşğul olduğu sahələr üzrə yüksək standart müəyyənləşdirib. O, atdığı humanist addımlarla, gördüyü nəcib işlərlə, sülhün bərqərar olması üçün göstərdiyi şücaətlə bütün insanlar üçün təkrarlanması vacib örnəyə çevrilib.

Mehriban xanımın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır və həmçinin ölkənin birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu sübut edir. Xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən nəciblik missiyasını şərəflə yerinə yetirir. Onun ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır.

İkinci Qarabağ müharibəsi başlayanda xalq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın duyğuları tərpədən, ədalətli müharibəmizdə döyüşçülərimizi döyüşə uğurlayan kəlamını da əsgəri çağırış bildi: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

Bu həm çağırış, həm də ana duası idi. Bu çağırış Şanlı Zəfərə aparan yolda qəhrəman oğullarımızın döyüş ruhunu artırdı. Döyüşlərdə qəhrəmanlıq göstərərək yaralanan hərbçilərimizə mütəmadi baş çəkib qayğılarına qalan Mehriban xanım Əliyevanın ana qayğısı hər bir hərbçimizin döyüş ruhunu artırırdı.

Böyük Zəfər ölkəmizin siyasi imicini də yüksəltdi, dünya dövlətlərinin ona ehtiramını da artırdı. Zəfərdən sonra Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərlərində Birinci vitse-prezident Mehriban xanım Əliyeva da olur, dövlət başçısı ilə birlikdə quruculuq işlərinin başlanğıcında, bu və ya digər müəssisənin təməlqoyma mərasimində iştirak edir. Bünövrənin qoyulmasında bu səviyyədə iştirak sevginin ifadəsidir, sözlə ifadə edilə bilməyən ana xeyir-duasıdır.

Mehriban xanım Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurda gördüyü işlər də möhtəşəmdir. Vandal ermənilərin 30 ildə darmadağın etdikləri tarixi-mədəni və dini abidələrimizi yenidən bərpa edən fondun gördüyü işlər misilsizdir.

Bütün bunların fonunda əminliklə deyə bilərik ki, xeyirxahlığı, Vətənə, xalqa, dövlətçiliyə, dövlətə xidməti həyat fəlsəfəsi bilən Mehriban xanım Əliyevanın Azərbaycanın ən yüksək dəyərinə - "Heydər Əliyev mükafatı"na, "Heydər Əliyev" ordeninə layiq görülməsi təsadüfi deyil.

### Şərqin ilk seçib-seçilmək hüququ qazanan qadını

Azərbaycan qadını hər zaman cəmiyyətimizin əsas aparıcı qüvvəsi olaraq bir xalq kimi formalaşmağımızda, tariximizin zənginləşməsində, ədəbiyyatımızın, mədəniyyətimizin yaranmasında və inkişafında müstəsna rol oynayıb. Müqəddəs ana, vəfalı həyat yoldaşı olmaqla yanaşı, həm də görkəmli diplomat, hökmdar, sərkərdə, qəhrəman döyüşçü kimi tarixdə dərin iz buraxıb.

Tomris, Nüşabə, Burla Xatun, Sara Xatun, Həcər, Nigar və başqa qəhrəman analarımız düşmənə gözdağı olublar. Onlar igidliyi və fədakarlığı ilə şanlı tariximizi yaradıblar. Əsrlər keçsə də, xalqımız onları heç vaxt unutmur, adlarını yaşadaraq nəsildən-nəslə ötürür. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçib-seçilmək hüququ verməklə onların cəmiyyətimizdə statusunu daha da artırmış, ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirakına şərait yaratmışdır. Azərbaycan qadını həmçinin milli kimliyimizin qorunmasında, azadlıq mübarizəsinin geniş vüsət almasında yaxından iştirak edib, ana dilimizin, mənəviyyatımızın ən etibarlı dayağı olub. Ölkəmizdə dövlət səviyyəsində qadın siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ümummilli Lider qadın şəxsiyyətinə daim böyük hörmətlə yanaşıb, onların ictimai-siyasi sahədə rolunun artırılması istiqamətində mühüm addımlar atıb. Ulu Öndər əsasən idarəçilik sistemində qadınların irəli çəkilməsini, onların fəaliyyətinin yüksək səviyyədə qiymətləndirilməsini həmişə diqqətdə saxlayıb.

Azərbaycan 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Konvensiyasını, həmçinin Beynəlxalq Əmək Təşkilatının (BƏT) qadın əməyi sahəsində qəbul etdiyi "Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında", "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında", "Analığın mühafizəsi haqqında", "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" və "Ərdə olan qadının vətəndaşlığı haqqında" konvensiyalarını qəbul edib.

1998-ci ildə Ümummilli Lider Heydər Əliyev cəmiyyətdə qadınların mövqeyini möhkəmləndirmək üçün "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzaladı. Həmin il - 1998-ci il sentyabrın 14-də, 26 illik fasilədən sonra Azərbaycan Qadınlarının I Qurultayı keçirilib. Ötən il isə ölkənin bütün regionlarından olan 600-ə yaxın qadının bir araya gəldiyi Azərbaycan Qadınlarının VI Qurultayı ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda ilk qadın qurultayının 25 illiyinə təsadüf edirdi.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev də Azərbaycan qadını haqqında çox dəyərli fikirlər səsləndirib və ölkəmizdə qadın hərəkatının daha da yüksəlməsində təqdirəlayiq addımlar atıb. Möhtərəm Prezidentimiz qeyd edib ki, Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərib və nailiyyətlərlə dolu parlaq bir yol keçiblər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsində və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynayıb, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Dövlət başçısı cənab İlham Əliyev hər il Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbriklər ünvanlayır, ölkəmizin inkişafında onların xidmətlərini xüsusi qeyd edir, orden və medallarla təltif edir. Təbii ki, bu da dövlət səviyyəsində qadınlara olan diqqət və qayğının təzahürüdür.

Azərbaycan həmkarlar ittifaqları da qadınların ictimai həyatda fəal iştirakına, həmkarlar ittifaqlarının strukturlarında daha çox təmsil olunmalarına, onların rolunun gücləndirilməsinə xüsusi diqqət yetirir. Hazırda həmkarlar ittifaqı üzvlərinin sayında qadınlar üstünlük təşkil edir.

Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra gender bərabərliyi ilə bağlı BMT və Beynəlxalq Əmək Təşkilatının (BƏT) ən mühüm sənədlərinə qoşulub, "Gender bərabərliyinin (qadın və kişilər arasında) təminatı" və "Məişət zorakılığı" haqqında qanunları qəbul edib. Azərbaycanda bərqərar olan demokratik mühit qadınların zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Belə bir zəmin əsasında AHİK qadınların ölkənin sosial-iqtisadi həyatında fəal iştirakına, həmkarlar ittifaqlarının strukturlarında daha çox təmsil olunmalarına, onların rolunun gücləndirilməsinə xüsusi diqqət yetirib. AHİK-də "Gender siyasəti Konsepsiyası"na əsasən "Kollektiv müqavilələrdə gender yanaşmasını tətbiq etmək" və "Həmkarlar ittifaqı təşkilatlarının rəhbərliyində kişi və qadınların təmsil edilməsinin tarazlaşdırılması" üzrə tövsiyələr hazırlanmış, AHİK-in nəzdində "Gender bərabərliyi və qadın problemləri üzrə Mərkəz" yaradılmışdır. Hər il gender bərabərliyini səciyyələndirən statistik hesabatların araşdırılması onu deməyə əsas verir ki, yerlərdə qadın və kişilər üçün bərabər hüquq və imkanların təmin olunması vacib addımlardır.

### AHİK kişi və qadın bərabərliyinə diqqətlə yanaşır

İnsan hüquqlarının müdafiəsi, gender bərabərliyinin əldə edilməsi və xüsusilə də qadın və qızların cəmiyyətdə fəallığının artmasına və inkişafına nail olunmasının təşviqi daim Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qarşısında duran əsas məsələlərdən biri olmuşdur.

Məlumdur ki, gender bərabərliyi qadın və kişilərin, oğlan və qızların bərabər hüquqları, vəzifələri və imkanları deməkdir. Bərabərlik kişi və qadınların fərqli ehtiyaclarını, maraq və istəklərini eyni dərəcədə nəzərə almağı tələb edir. AHİK kişi və qadın bərabərliyinə, ailə münasibətlərinin sağlam mühitdə formalaşması və qorunub saxlanılmasına diqqətlə yanaşır. Bu istiqamətdə həyata keçirdiyi siyasətin əsasında statistik göstəricilərin sosial-iqtisadi, hüquqi, mədəni və psixoloji aspektlərinin təhlili durur. AHİK-də qəbul olunmuş "Gender bərabərliyi konsepsiyası" əsasında uzunmüddətli "Fəaliyyət proqramları" icra olunur, "Gender və Qadın problemləri üzrə Mərkəz", "Gender bilikləri və texnologiyası məktəbi" fəaliyyət göstərir. Dövlət Statistika Komitəsindən və AHİK-ə üzv olan 27 sahə həmkarlar ittifaqı mərkəzindən daxil olan statistik məlumatlar ümumiləşdirilir, cinslər arasındakı fərqlərin və təcrübələrin təsiri öyrənilir. Bu işlərlə sahə həmkarlar ittifaqlarının strukturlarında təyin olunmuş 10 minə yaxın məsul şəxsi əhatə edən 2463 komissiya məşğul olur.

AHİK qadın üzvlərinin öz potensiallarının üzə çıxarılmasını prioritet istiqamətlərdən sayır. Gender statistikası göstərir ki, həmkarlar ittifaqları üzvlərinin ümumi sayında kişilər 47,7 faiz olduğu halda, qadınlar 52,3 faiz təşkil edir. Üzvlərin 18,9 faizi gənclərdir. Onların da yarıdan çoxu, yəni 9, 534 faizi gənc qadınlardır və bu xanımlardan da 6,18 faizi bütün səviyyəli rəhbər vəzifələrdə təmsil olunur. Sədr vəzifəsində işləyənlərin isə 32,7 faizi gənc qadınlardır. Ümumilikdə həmkarlar ittifaqlarının seçkili orqanlarında qadınlar - 47,8 faizi, bütün səviyyəli rəhbər vəzifələrdə isə 42,5 faiz göstərici ilə təmsil olunurlar.

Gender bərabərliyi qlobal məsələdir. İş, təhsil, sosial müdafiə və məşğulluq üçün bərabər çıxış imkanı Yeni Sosial Müqavilənin də təminatı olmalıdır. Təəssüflər olsun ki, bu qədər qlobal inkişafa baxmayaraq, qadın və qızlar hələ də müxtəlif formalarda zorakılığa məruz qalırlar. Qeyri-rəsmi iqtisadiyyatın əksəriyyətini qadınlar təşkil edir. Bərabər əməkhaqqı və layiqli iş şəraiti bütün hallarda qadınlar üçün həlledici olmalıdır.

Bütün işəgötürənlər qayğı iqtisadiyyatını öz planlarının və büdcələrinin mərkəzinə yerləşdirməlidirlər ki, "ödənişsiz iş" məfhumu aradan qaldırılsın, sosial müqavilələrdə və kollektiv sazişlərdə qadın işçilərin də təmsil olunması təmin edilsin. Biz də öz növbəmizdə sosial tərəfdaşlarımızı qayğı iqtisadiyyatına sərmayə qoymağa və qayğı işinin dəyərinin lazımi səviyyədə tanınmasına çağırırıq. Bu davamlı inkişaf üçün də təməl faktorlardır. Davamlı inkişafı təmin etmək üçün həyata keçiriləcək iş, istər milli səviyyədə, istərsə də hər hansı bir orqan və ya müəssisə səviyyəsində düzəlişlərin və yeni imkanların mövcud olacağı vəziyyətin yaradılmasını tələb edir və əlbəttə ki, bu imkan və düzəlişlər ilk növbədə işçilərə yönəldiləcəkdir. Həmkarlar ittifaqları isə işçilərin nümayəndəsi kimi davamlı inkişafın təşviqində ən vacib qüvvədir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası beynəlxalq ictimaiyyətin qlobal inkişaf təşəbbüslərinə daim yaxından maraq göstərib. Bu gün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 70-dən artıq həmkarlar ittifaqı mərkəzi ilə əməkdaşlıq edir. İndiyədək AHİK dünyanın 12 xarici həmkarlar ittifaqı qurumu ilə ikitərəfli müqavilələr bağlayıb. Son 30 il ərzində 219 seminar və konfrans təşkil olunub, onların 114-ü beynəlxalq səviyyəli tədbirlərdir.

Gender və bərabərlik məsələlərindən başqa, AHİK Dayanıqlı İnkişaf Məqsədlərinin daha yaxşı mənimsənilməsi və milliləşdirilmə prosesinə töhfə vermək məqsədilə də "DİM 2015-2030 Gündəliyi" mövzusunda 2016-cı ildən başlayaraq BƏT ilə birgə bir sıra beynəlxalq, regional və subregional maarifləndirici seminar və konfranslar keçirib. Eləcə də AHİK-in bir çox mütəxəssisi mövzu ilə əlaqədar olaraq istər Beynəlxalq Əmək Təşkilatının, istərsə də Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyi ilə keçirilən bir sıra beynəlxalq təlim kursları, seminarlar və plenar iclaslarda iştirak etmişlər. Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası BƏT-in Dayanıqlı İnkişaf Məqsədləri üzrə iki prioritet təşkilatından biridir (Moldova və Azərbaycan).

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası olaraq sosial rifahın təmini üçün qəbul edilən bütün qərarları dəstəkləyir, eləcə də işçi hüquqları müdafiəçiləri olaraq bütün dünyada hamı üçün sülh və ədalətin bərqərar olduğu bir dünya arzulayırıq. Unutmayaq ki, qadınlar həyatın əsas qurucuları və gələcəyi deməkdir. Qadın hüquqları bütövlükdə insan hüquqları deməkdir. Qadınlar dünyamızdır və biz bu dünyanı qorumalıyıq.

Bir daha bütün dünyada qadınlarımıza bərabər hüquqda və həmrəylikdə yaşayıb inkişaf edəcəyi, səmərəli fəaliyyət göstərəcəyi və layiqli işlə təmin olunacağı bir həyat arzu edirəm!

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

## 8 Mart Beynəlxalq Qadınlar Günüdür



# Xoşbəxt qadın güclü cəmiyyətin təməlidir

**Azərbaycan milli təfəkküründə Vətən həmişə Ana obrazında təsəvvür edilmişdir. Qadın müqəddəs sayılmış, Ana adı ən ideal mənəvi dəyərlərlə bərabər tutulmuşdur. "Qadın cəmiyyətin bütövlük rəmzi, elin, yurdun, ocağın abadlığı, möhtəşəmliyidir" deyirlər. İnkişafa doğru gedən yollar, atılan müdrik addımlar, qazanılan böyük uğurlar həm də bu nəcib zümrənin fədakarlığı və zəkası sayəsində başa gəlir.**

Vətən uğrunda fədakarlıq, nikbin ruh, xeyirxah əməllər, ədalətli qərarlar Azərbaycan qadınının təməl xarakteridir. Bizim xanımlar tarixin bütün dövrlərində mənsub olduğu nəslin, elin, obanın yükünü daşımaqdan qürur duyublar. Əməlləri ilə hər zaman bu ucalıqda qərar tutmağa çalışıblar.

Bu gün qadınlarımızın Azərbaycanın ictimai-siyasi həyatında artan rolu və mövqeyi bizim milli dövlətçilik tariximizin ən böyük uğurlarındandır. Bu uğurlar bir tərəfdən Azərbaycanda qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələr, digər tərəfdən isə ölkə rəhbərinin həyata keçirdiyi strateji inkişaf xəttində qadın siyasəti ilə bağlı seçilmiş prioritetlər üzərində qərar tutur. Prezident İlham Əliyevin bu il 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik məktubunda xalqımızın hər zaman xanımlarımıza dərin ehtiram bəslədiyi xüsusi qeyd olunur: "Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər".

Bu gün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadını tarixdə layiq olduğu böyük zirvəyə yüksəlmişdir.

Mənəvi-insani dəyərlərə xitab, xalqın arzu və amallarının gerçək həyata çevrilməsi Prezident İlham Əliyevin işıqlı qayəsidir. Qarşıya qoyduğu, reallaşdırdığı ali məqsədlər yüksək ideallardır. Azərbaycan Prezidenti bu məqsədlərə doğru aparan haqq yolunda ona görə bu qədər uğurludur ki, ən çətin məqamın hər addımında ümumxalq dəstəyindən güc alır. Bu qətiyyətli, möhtəşəm fəaliyyətin daha bir məntiqli səbəbi də ölkənin birinci xanımı Mehriban Əliyeva kimi dönməz silahdaşının, məsləkdaşının, etibarlı yol yoldaşının olmasıdır.

Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir...

O, millətin tərəqqisi üçün yenilənən ideyalar sahibidir...

Mehriban xanımın fəaliyyətində məsuliyyət yükü böyükdür...

Ana adı və missiyası Mehriban xanım üçün çox əzizdir. Başladığı hər yeni layihəyə ana qəlbinin hərarətini qatır. Bütün çıxışlarından ananın səsi-sorağı gəlir, söhbətlərində ana qayğısı, nəvazişi duyulur.

Azərbaycanın Birinci vitse-prezidentinin hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu daşıyır. Mehriban xanım cəmiyyətin firavanlığına bu proseslərin əsas məqsədi kimi yanaşır, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edir. Çünki onun həyata keçirdiyi yüksək amallardır. Bunlar o amallardır ki, tarixin heç bir dönəmində başqalaşmır, məzmununa xələl gəlmir.

Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən belə şəxsiyyətlərin apardıqları qətiyyətli fəaliyyətləri hər addımda ümumxalq sevgisi ilə əhatə olunur. Müstəqil Azərbaycan dövlətinin ötən əsrin 90-cı illərinin ortalarından bəri qazandığı nailiyyətlərdə Mehriban xanım Əliyevanın imzası, misilsiz xidmətləri var.

### Böyük dayaq

Ölkəmizdə qadın fəallığı zəngin tarixi ənənələrə malikdir. Müstəqil dövlətimizin sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti qadınların seçib-seçilmək hüququnu tanıyaraq tarixdə böyük bir səhifə açmışdır. Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərindən başlayaraq respublikaya rəhbərliyi dövrü isə həyatımızın müxtəlif sahələrində olduğu kimi, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin də inkişafı mərhələsidir.

Ulu Öndərin böyüklüyü həm də onda idi ki, Azərbaycan qadınına layiq olduğu dəyəri verirdi, qadınlarımızın ictimai fəallığına mühit yaradırdı, onları ümumxalq mübarizəsinə ruhlandırır, böyük işlərə istiqamətləndirir, xanımlarımıza həm də ən yüksək vəzifələrdə etimad göstərirdi.

Qadınların ictimai fəallığının ilkin mühüm şərti onlara bərabər imkanlar mühitinin yaradılmasıdır. Belə bir mühit təhsildə, müəyyən sahələrdə çalışıb karyera irəliləyişlərinə nail olmağa, cəmiyyət üçün faydalı işlər yaratmağa, qadınlara qarşı fərqli yanaşmaların ortadan götürülməsinə qədər ən müxtəlif istiqamətləri əhatə edir. Ümummilli Lider fərqində idi ki, bəşəriyyətin yüksəlişi bu nəcib zümrənin inkişafından, rifahından başlanır. Ona görə ki, həyatımızda hər hadisənin təməlində duran tərbiyədir. Fərdlərin tərbiyəsində isə Ana kimi ali bir missiyaya malik qadınların rolu çox böyükdür. Bütün bunları nəzərə alaraq Heydər Əliyev hələ sovetlərin hakim olduğu dövrdən Azərbaycan qadınlarına hər sahədə yol açırdı. Onun rəhbərliyi zamanında müxtəlif istehsal və xidmət müəssisələrində, kənd yerlərində çalışıb respublikamıza fayda verən nə qədər gənc qızımız tələbə adını qazanıb, taleyində böyük bir dönüşə nail oldu. Milli mədəniyyətimizi bütün dünyada layiqincə təmsil edən neçə-neçə qadın alimimiz, sənət xadimimiz, səfir və diplomatlarımız yetişdi.

Müstəqilliyimizin ilk illərində cəmiyyətdəki mürəkkəb ictimai-siyasi, sosial-iqtisadi və mənəvi problemlərin burulğanına düşən mərd, fədakar, mübariz qadınlarımız 1990-1993-cü illərdə yaşananların sıxıntılarına rəğmən bu gün dünya qadınlarının öncülləri sırasında qərar tutur. Bütün dövrlərdə kişilərlə çiyin-çiyinə dayanan, öz dəstəyini onlardan bir an belə əsirgəməyən Azərbaycan qadını hazırda müstəqil dövlətimizin inkişafı, tərəqqisi istiqamətində görülən ardıcıl işlərdə onlarla birlikdə addımlayır.

44 günlük Vətən müharibəsində ağır yaralara mətanətlə, böyük ləyaqətlə dözüm göstərən, ölkəmizin müstəqilliyi, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş oğullarımızın yoxluğu acısını çəkən, 30 il itirilmiş yurdlarımızın, sönmüş ocaqlarımızın həsrəti ilə yaşayan Azərbaycan qadını həmin zamanlarda qarşısındakı məsuliyyətini də unutmurdu. Onların dünyaya gətirib tərbiyələndirdiyi övladlar Vətənin ərazi bütövlüyünə nail oldular. Silah götürüb Qarabağ uğrunda vuruşdular, Şərqi Zəngəzur uğrunda canlarından keçdilər. Azərbaycan qadınının taleyinə "şəhid anası", "şəhid xanımı", "şəhid bacısı", "şəhid qızı" olmaq qisməti yazıldı. Neçə-neçə Azərbaycan qadını da kişilərlə bərabər döyüşlərə atıldı, yurdumuzun azadlığı və ərazi bütövlüyü uğrunda həyatını fəda etdi.

### Qadın siyasəti yüksəliş mərhələsində

Bu gün Azərbaycan qadını yeni dövrdə üzərinə düşən vəzifələri yerinə yetirərək ölkədə gedən çoxşaxəli inkişaf proseslərinə öz töhfələrini verir. Bu siyasətə dəstək olmaqla Prezident İlham Əliyevin Azərbaycana qazandırdığı nailiyyətlərin, qələbələrin məzmununda özünün, ailəsinin, övladlarının gələcəyinə ünvanlanmış arzularının addım-addım reallığa çevrildiyini görür. Cəmiyyətdə əhəmiyyətli bir qüvvə kimi çıxış edən Azərbaycan qadınının Prezident İlham Əliyev şəxsiyyətinə, onun həyata keçirdiyi siyasətə inam və etimadının əsasında həm də bu həqiqət dayanır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qadın siyasəti yeni yüksəliş mərhələsinə qədəm qoymuş, ölkəmiz bu sahədə də dünyanın öncül, nümunəvi dövlətləri sırasında qərarlaşmışdır. Dövlət başçısının həyata keçirdiyi siyasətdə gender bərabərliyi məsələləri xüsusi yer tutur. Qadın hüquqlarının müdafiəsi, xanımlarımız üçün yaradılmış imkanların zaman-zaman daha da genişləndirilməsi Prezidentin həyata keçirdiyi dövlət siyasətinin mühüm istiqamətlərindən olmuşdur. 2006-cı ildə Prezidentin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bunun bariz bir nümunəsi olmuşdur. Bu qurumun fəaliyyəti ölkəmizdə qadın fəallığına böyük təkan vermiş, həyata keçirilən sosialyönümlü dövlət siyasətinə uyğun olaraq onların işlə təmin olunması, məşğulluq strategiyasının həyata keçirilməsi, gender bərabərliyinin qorunması, uşaq hüquqlarının müdafiəsi və s. istiqamətlər üzrə mühüm nailiyyətlər əldə edilmişdir.

Ötən illər ərzində qadınlarla bağlı hüquqi baza daha da təkmilləşdirilmişdir. Xanımlarımız üçün bərabər hüquqların təmin edilməsi məqsədilə "Gender bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlar qəbul olunmuşdur. Qadın hüquqları məsələsi konkret qanunlarla yanaşı, bir sıra məcəllələrlə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s.) təsbit edilmişdir. Eyni zamanda bir çox dövlət proqramında ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılması məsələlərinə xüsusi yer verilmişdir. "Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2022-2025-ci illər Milli Fəaliyyət Planı" hazırlanmışdır. Fəaliyyət planının məqsədi gender bərabərliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsidir. 2018-ci ildə Azərbaycanda qadınlara seçki hüququnun verilməsinin 100 illiyi qeyd edilmişdir. Bununla bağlı Azərbaycan Qadınlarının V Forumu keçirilmişdir. Bu möhtəşəm tədbirdə Azərbaycan qadınlarının xalqın maariflənməsi, mədəniyyətimizin yüksəlişi və müasir iqtisadiyyatımızın qurulmasında daim yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirməsi, vətəndaş cəmiyyəti quruculuğunda öz intellektual potensiallarını əsirgəməməsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gənc nəslin vətəndaşlıq və vətənpərvərlik istiqamətlərində yetişdirilməsi sahələrindəki xidmətləri yüksək qiymətləndirilmişdir.

Həyata keçirilən bütün bu tədbirlər sayəsində Azərbaycanın qadın fəallığı ənənələri tarixində böyük bir səhifə açılmışdır. Ən mühümü isə insanlarımızın təfəkküründə yeni düşüncə tərzi formalaşmışdır. Cəmiyyətimizdə xanımlarımızın inkişafını əngəlləyən, onların öz potensial imkanlarını reallaşdırmalarına mane olan bir sıra stereotiplər qırılmışdır. Bu gün getdikcə daha çox insan anlamağa başlayır ki, qadın sözünün yaratdığı fərq imkanların qeyri-bərabərliyi deyil, iş və şəxsi həyatda daha çox fədakarlıqdır, məsuliyyətdir, insanlara faydalı olmaq istəyidir. Azərbaycan qadını bunu təkcə sözlə deyil, əməlləri ilə sübuta yetirir. Göstərir ki, zərif cinsin nümayəndələri də böyük işlər görə, parlaq nəticələr əldə edə bilərlər.

### Dəyərlərimizə həssas münasibət

Prezident İlham Əliyev Azərbaycan qadınlarına müstəqillik ideyası ətrafında sıx birləşərək milli dövlət quruculuğu proseslərinin, ictimai-siyasi hadisələrin fəal iştirakçısı kimi respublikamızın elmi-intellektual potensialının artırılmasına əvəzsiz töhfələr verən əhəmiyyətli qüvvə kimi yanaşır. Onların xüsusən milli-mənəvi dəyərlərin qorunmasında, təhsil, elm, səhiyyə, mədəniyyət sistemlərində dolğun fəaliyyətləri ilə maarifpərvər qadın ziyalılarımızın ideyalarını müvəffəqiyyətlə həyata keçirmələrini çıxışlarında dəfələrlə vurğulayır. "Xalqımıza xas ənənəvi ailə dəyərlərinə sadiq qalan çağdaş Azərbaycan xanımları eyni zamanda güclü müasirlik duyğusuna və yenilikçi təbiətə sahibdirlər" deyən dövlətimizin başçısı qadınlarımızın çoxəsrlik milli-mənəvi dəyərlərimizi, müqəddəs ailə ənənələrimizi layiqincə yaşatdıqlarını, ölkəmizin sosial-iqtisadi və elmi-mədəni potensialının artırılmasında, multikultural və tolerantlıq mühitinin qorunmasında qüvvələrini əsirgəmədiklərini yüksək qiymətləndirir. Azərbaycan dövlətinin qadınlarla bağlı apardığı ardıcıl siyasət ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla onların bərabər hüquq və imkanlarının təmin edilməsinə yönəlmişdir.

Hazırda qadınların ictimai həyatda fəal iştirakı məsələsi zaman keçdikcə daha da aktuallaşır. İslam dünyasının elm, təhsil və mədəniyyət təşkilatı olan ICESCO 2021-ci ili islam aləmində "Qadın ili" elan etmişdi. Bu, həmin qurumun 2020-2030-cu illərdə strateji planının tərkib hissəsidir. Belə bir qərarda əsas məqsəd isə islam dünyasında sosial, iqtisadi və mədəni həyatda qadınların rolunu gücləndirmək, gənc qızların müasir standartlara uyğun daha mükəmməl təhsil almasını təmin etməkdən ibarətdir.

ICESCO-nun bu qərarı Azərbaycan üçün müstəsna əhəmiyyət daşıyır. Çünki Azərbaycan islam aləminin bir hissəsi kimi həmin mütərəqqi məqsədləri hələ ötən əsrin əvvəllərindən həyata keçirərək bütün müsəlman dövlətləri üçün müsbət bir nümunə yaradan ölkələrdəndir.

Azərbaycan möhkəm daxili sabitlik, həmrəylik şəraitində özünün inamlı gələcəyini qurur. Bu, tərəqqinin ardıcıllığını təmin edən Prezident İlham Əliyevin məharətlə həyata keçirdiyi siyasi xətdir. Ölkəmiz artıq 2030-cu ilə qədər öz milli inkişaf prioritetlərini elan edib. Onların sayı beşdir: dayanıqlı şəkildə artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bu strateji hədəflərə çatmaq üçün qadınlarımız fədakarlıqla çalışır, bütün səylərini səfərbər edirlər. Onlar təkcə insanpərvər layihələrin gerçəkləşməsində deyil, həm də sivilizasiyalar arasında mədəni dialoqun qurulmasında, ayrı-ayrı xalqların ortaq mədəni dəyərlərinin aşkara çıxarılmasında, ölkələr arasında elmi-humanitar əməkdaşlığın dərinləşməsində böyük işlər görürlər. Respublikada bərqərar olan demokratik mühit qadınlarımızın zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Bu siyasət daimidir, dönməzdir və bütövlükdə qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa geniş imkanlar açır. Azərbaycanın uğurları qadın fəallığı ənənələrinə yeni nəfəs verir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Qadınlarımız ordu quruculuğunda da yaxından iştirak edirlər"

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təbrikdə deyilir:**

"Əziz xanımlar!

Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, hər birinizə ən xoş arzularımı bildirirəm.

Azərbaycan qadını tarix boyu şərəfli və müqəddəs ana adını uca tutmaqla, müdrikliyi, idarəetmə strukturlarında işgüzarlığı, saflığı və mübarizliyi ilə keçmişimizə ən parlaq səhifələr yazıb. Respublikamızın ictimai-siyasi, mədəni həyatında, cəmiyyətdə fəal iştirak edərək Vətənin müdafiəsində və dövlət quruculuğunda xüsusi bacarıq, istedad nümayiş etdirməklə yanaşı, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə cəsarət və qorxmazlığı ilə seçilib.

Dövlətçilik tariximizin şərəfli səhifəsi sayılan Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri qadınlara seçmək və seçilmək hüququnun verilməsi cəmiyyətdə onların yeri, xüsusi hörmətə və nüfuza malik olduqlarını bir daha xarakterizə edir. Respublikamız dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da Azərbaycan qadınının cəmiyyətdə əvəzsiz rolu bir daha təsdiqləndi. Milli dövlət quruculuğu prosesində, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılmasında fəal iştirakı Azərbaycan qadınının dünyagörüşünün zənginliyinin, intellektual səviyyəsinin yüksək olmasının bariz nümunəsidir.

Azərbaycanımızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qadınlar da fəal iştirak edib, qəhrəmanlıq, fədakarlıq nümunələri göstəriblər. Vətənimizin azadlığı uğrunda və müqəddəs amal naminə neçə qadın şəhid olub, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Azərbaycan qadını gənc nəslin Vətənə, dövlətə sevgi, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunmasına öz böyük töhfələrini verib və onların xalqa, cəmiyyətə layiqli övlad kimi formalaşmasında da əsl vətəndaş, əsl ana kimi əməyini əsirgəməyib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərimizə, humanizm ideyalarına xidmət edən və ənənələrimizi qoruyub yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunmasında, eləcə də ölkəmizin müdafiə qüdrətinin artırılmasında Azərbaycan qadını bu gün yaxından iştirak edir, Böyük qayıdışa öz layiqli töhfələrini bəxş edir.

Mərhəməti, humanistliyi və xeyirxahlığı, müdrikliyi, zəngin dünyagörüşü ilə fərqlənən qadınlarımız ordu quruculuğunda da yaxından iştirak edirlər. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə qadın Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirir. Mülki işlərdə çalışan qadınlarımızın da əməyi yüksək qiymətləndirilir.

İnanıram ki, Azərbaycan Ordusunda xidmət edən və mülki işçi kimi çalışan bütün qadınlar bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklər.

Bayramınız mübarək, əziz xanımlar! Azərbaycan dövlətinin müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan qüdrətli ordusu var".

# Həmişə evinizdə-eşiyinizdə!

## Tezliklə bu sözləri keçmiş məcburi köçkün xanımların hər biri eşidəcək

**Bu qadınlar bir-birini tanımır. Olsun ki, heç vaxt heç qarşı-qarşıya da gəlməyiblər. Ancaq üç onillik eyni taleyi yaşayıblar. Məcburi köçkün taleyini...**

Hər ikisi ailəsi, qohum-əqrabası ilə birlikdə namərd yağının əli ilə yurd-yuvasından perik düşəndə əvvəlcə bir yataqxanaya, sonra başqa bir yataqxanaya sığınıb daha sonra isə indi yaşadıqları yerdə məskunlaşdırılıblar.

Kifayət Quliyeva Cəbrayıl rayonunun Balyand kəndindəndir. Deyir ki, yüz il yaşasam belə, kəndimizdən zorla çıxarıldığımız günü unuda bilmərəm: "Ayağıyalın, başıaçıq vəziyyətdə çıxdıq kənddən. Elə bildik axşama sarı evimizə dönəcəyik. Qaş qaralanda qonşu kəndə çatdıq və burada məlum oldu ki, artıq geriyə yol yoxdur. Elə o an ətrafına toplaşdığımız ağacın altında yerə çöküb necə hönkür-hönkür ağladığım yadıma düşəndə indi də ürəyim dağlanır".

Kifayət xanım kövrəlir, amma sözünə davam edir: "Əvvəlcə Sumqayıtda yaşayan qohumlarımıza pənah gətirdik. Ancaq atalar demişkən, el elə sığar, ev evə sığmaz. Qohumun özünün də mənzili geniş deyildi. Sonra da yataqxana həyatı... Onda dövlətimizin indiki imkanları yox idi. Həm də qaçqın-köçkün bir deyildi, beş deyildi. Xeyirxah insanlar kömək etdi. Bir müddət sonra Bakıda sovet dönəmindən tikintisi yarımçıq qalmış bir binada məskunlaşdıq. Həyat yoldaşım bənna idi, Balyanddakı evimizi kərpic-kərpic özü qaldırmışdı. Torpağı əkib-becərməyi çox sevərdi. Şəhər həyatına heç cür alışa bilmədi. Dünyasını vaxtsız dəyişdi. Kənddən biri altı, biri beş, biri də iki yaşında gətirdiyim övladlarımı dövlətin köməyi ilə araya-ərsəyə gətirdik, indi müstəqil insanlardır..."

Zəngilan rayonunun Qıraq Müşlan kəndinin sakini Təranə Kərimova isə doğma yurdu 21 yaşında tərk etməli olub. Yaxın günlərdə toyu olacaqmış, amma qismət deyilmiş. Yığılı cehizi yağıya qalıb. Həmkəndlisi olan həyat yoldaşı, qayınanası, baldızı və qaynı ilə Bakıda xeyli müddət bir yataqxana otağında yaşayıblar. Sonra gənc ailəyə bir sənaye müəssisəsi istifadəsiz olan otaqlarında sığınacaq verib.

Təranə xanım deyir ki, müdrik Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev onların kəndinin işğaldan azad edildiyini xəbər verəndə hansı hissləri keçirdiyini söyləməyə söz tapa bilmir. Keçən il ona qardaşları, ailəsi ilə birlikdə doğma yerlərə baş çəkmək də qismət olub.

"Ayağıyalın şütüyürdüm zalım yağının xaraba qoyduğu ata yurduma sarı. Bu, əhdim idi. Dəli kimi ağlayırdım. Amma Bakıya dönəndən sonra xeyli toxdadım. Tezliklə bizim kənd də yenidən tikiləcək, abad olacaq. Biz çıraqlarımızı orada yenidən yandıracağıq. Şəhid qanı bahasına azad olan o yerlərə həyatı qaytarmaq hər birimizin boynunun borcudur..."

Təranə Kərimova o günü hər saat, hər an səbirsizliklə gözləyir.

Kifayət Quliyeva isə deyir ki, kəndinin azad edildiyini eşidəndə az qala qışqırıb, sanki bu xəbəri bütün dünyaya car çəkmək istəyib: "Bir andaca özümü evimdə-eşiyimdə hiss etdim. İstədim tanıdığım hər kəsi qonaq çağıram. Deyəm ki, gəlin, bizim dağlar qoynundakı gözəl kəndimizi görün... İnşallah, tezliklə o da olacaq. Prezidentimiz bütün Qarabağı, Şərqi Zəngəzuru cənnətə çevirir. Sevinirəm ki, hələ qolumun qüvvəsi, dizimin taqəti tükənməyib. Mən də gedib kənddə bir işin qulpundan yapışacam".

Həmişə evinizdə-eşiyinizdə, gözəl xanımlar! Bu sözlərlə keçmiş məcburi köçkün qadınların hər birinə gözaydınlığı verəcəyimiz günlər də uzaqda deyil.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# 8 Mart Beynəlxalq Qadınlar Günüdür



# Həyatda ömrünü, sənətdə taleyini yaşadı

**Bütün istedadını, qəlbinin hərarətini sənətə həsr edən görkəmli səhnə xadimi, Xalq artisti Nəsibə Zeynalovanın özünəməxsus yaradıcılıq siması, xüsusiyyətləri vardı. Bu da çox vacib və dəyərli keyfiyyətlər idi: aydın, parlaq, sağlam və ağıllı gülüşü ilə hər bir tamaşaçıya xüsusi zövq vermək.**

Səhnəmizin korifeyinin hər hərəkəti, şux zarafatları, söz-söhbətləri heç vaxt yaddaşlardan çıxmır. Gülüş ustadının yaratdığı obrazlar köhnə zəmanənin - ötən əsrin adamları olsa belə onlar bu gün də insanları güldürür, düşündürür və həmin qəhrəmanları canlandıran ustad sənətkarı xalqa bir daha sevdirir. Nəsibə xanımın oyunu heç bir zaman təsirsiz qalmırdı, tamaşaçısını həyatın mənası, sənətin yüksək vəzifələri haqqında düşünməyə məcbur edirdi. Daim dolu olan salon hər dəfə onu gurultulu alqışlarla qarşılayır və yola salırdı. O, tam, bitkin, mənən və cismən kamil surətlərlə ecazkar bir sənət nümunəsi yaradırdı.

Nəsibə xanım Zeynalova parlaq yaradıcılıq yolu keçmiş və yüksək fitri istedadı sayəsində Azərbaycanın çoxəsrlik zəngin mədəniyyət salnaməsində silinməz izlər qoymuşdur. Sənətkarın yaradıcılığına ümumxalq məhəbbəti qazandıran təkcə onun istedadı deyildi, həm də insan psixologiyasına bələdlik, həyati bilgilər, müşahidə qabiliyyəti, sənət sevgisi, məsuliyyət və ən nəhayət, böyük zəhmətsevərlik idi.





Unudulmaz sənətkarın atası Kərbəlayı Cahangir Azərbaycan teatrının banilərindən olmuşdur. 1916-cı ildə dünyaya göz açan yeganə qızı Nəsibə xanımı Kərbəlayı Cahangir, sözün əsl mənasında, nəzir-niyazla tapmış, bəxtinə də min kərə şükür etmişdi. Lakin ailənin bu sevinci uzun sürməmişdi. 1918-ci ilin mart ayında erməni daşnakları Bakıda kütləvi qırğınlar törədərkən Cahangir Zeynalov ailəsini də götürüb İrana gedir. Geriyə qayıdanda isə gəmidəki natəmizlik onun xəstəliyə tutulmasına səbəb olur. Az sonra Kərbəlayı Cahangir həyatla vidalaşır və ailənin çətin günləri başlanır...

Nəsibə xanımın həyat və yaradıcılıq yolları çox dolaylardan, sərt döngələrdən keçmişdir. Belə ki, gələcəyin böyük aktrisası 14 yaşından etibarən anasına kömək etmək üçün işləmək məcburiyyətində qalmışdı. Lakin qanındakı istedad onu başqa səmtə çəkib aparmağa başlamışdı. Belə ki, oxuduğu orta məktəbin tədbirlərində rəqqasəlik etmiş, milli oyun havalarının incəliklərini öyrənmişdi. 1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olmuşdu. Nəsibə Zeynalova həmin il sənədlərini Bakı Teatr Məktəbinə vermiş və yüksək nəticələrlə tələbə adını qazanmışdır. Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs almışdır. Tələbə ikən o, Şekspirin "Şıltaq qızın yumşalması"nda Katarina, Jan Batist Molyerin "Don Juan"nında Elvira, Fridrix Şillerin "Mariya Stüart"ında Yelizaveta rollarında oynamışdır.

Yaradıcılıq taleyini artıq Musiqili Komediya Teatrına bağlamış sənətkar uzun illər bu məbədgahdan ayrılmamış, 40 ildən çox işlədiyi bu sənət ocağının repertuar ağırlığını çiyinlərində daşımışdır.

Ustad sənətkarın obrazlar qalereyası olduqca zəngindir. O həm Azərbaycan və başqa xalqların dilindən tərcümə olunmuş əsərlərdə, həm klassik, həm də çağdaş bəstəkarların müasir mövzularda yazılmış musiqili komediyalarında uğurla çıxış etmişdir. Beləliklə, bir-birindən fərqlənən onlarca komik personajları canlandırmışdır. Nəsibə Zeynalova yaratdığı hər bir obrazın əvəzsiz ifaçısı olmuşdur.

"Dərviş Məstəli Şah"dakı Xanpəridən "Ulduz"dakı Züleyxayadək, "Hacı Qara"dakı Tükəzdən "Qaynana"dakı Cənnət xalayadək, "Beş manatlıq gəlin"dəki Səlbidən "Qızıl toy"dakı Ballıyadək unudulmaz aktrisamız neçə-neçə qadın xarakteri yaratmış, tamaşaçısını güldürmüş və düşündürmüşdür. Mütəxəssislər Nəsibə Zeynalovanın Cənnət xalasını, Nargiləsini, Züleyxasını zəngin ifadə vasitələrinə, yumorun milliliyinə, təbii reallığına görə Azərbaycan səhnəsinin nadir inciləri hesab etmişlər.

Nəsibə xanımın yaratdığı obrazlar həyatiliyi və real bədii təsvirləri ilə fərqlənirdi. Aktrisa bəzən gözlənilməz, ancaq mənalı və məzmunlu, yerinə düşən ifadə vasitələri ilə yaratdığı və tamaşaçıya çatdırdığı uğurlu improvizələrin müəllifi idi. O, müxtəlif epizodlarda rəqsdən, mahnıdan və hərəkətlərdən məharətlə istifadə edirdi, xalq yumorundan, lətifə söyləmək qaydalarından lazımınca bəhrələnirdi. Oynadığı əsərin məzmununa, mövzusuna, bədii dəyərlərinə tam yiyələnməyə nail olur, tipik xarakterlər yaratmağı bacarır, hər bir obrazın forma ilə məzmununun vəhdətini vacib sayırdı. Mütəxəssislər, eləcə də obrazın xarakterini hərəkətlə, yəni yerişi, oturuşu-duruşu ilə çatdırmaqda musiqili komediya sahəsində Nəsibə xanım kimi mahir bir sənətkar olmadığını söyləyirlər.

Nəsibə Zeynalovanın istedadı kinoda, ekran əsərlərində də əbədiləşib. O, "Ögey ana"da Fatmanisə, "Böyük dayaq"da Telli, "Ulduz"da Züleyxa, "Qayınana"da Cənnət xala, "Molla Fətəlinin sərgüzəştləri"ndə Gülüstan, "Bəyin oğurlanması"nda Əsli xala obrazlarını böyük ustalıqla yaradıb. Aktrisa eləcə də saysız-hesabsız televiziya tamaşalarında, yumoristik səhnəciklərdə, intermedialarda çıxış edib. Bundan əlavə, "Azərbaycanfilm" kinostudiyasının çoxsaylı ekran əsərlərində çəkilib.

Nəsibə xanımın bir aktrisa kimi xoşbəxtliyi həm də onda idi ki, böyük bir əsərdə kiçik, hətta epizodik rol oynasa da, yadda qalırdı. Onun ifası o qədər təbii, duzlu-məzəli idi ki, tamaşaçının hafizəsinə həmişəlik həkk olunurdu. Aktrisanın dilindən qopan bir çox fikir, söz sonralar hətta zərbi-məsələ çevrilirdi.

Nəsibə Zeynalova yaradıcılığının mahiyyəti bir də onda idi ki, məişət yumorunu incə ştrixlərlə ictimai-sosial mahiyyətə istiqamətləndirə bilirdi. Aktrisa satirik boyaları müəyyən rollarda qrotesk səviyyəsinə qaldırır, onlardan bol-bol istifadə edirdi. Bununla belə, janrın estetik prinsip və meyarlarına heç bir xələl gətirmirdi.

Nəsibə xanım sözə çox həssas imiş. Klassik operettalarda oynayarkən obrazın sözlərinə bir kəlmə də əlavə etməz, yaxud təhrifə yol verməz, xələl gətirməzdi. Ancaq müasir musiqili komediyalarda oynayarkən vəziyyətə uyğun olaraq bəzi əlavə sözlər işlədər, müəyyən ifadələrdən istifadə edərdi. Bunu xüsusilə librettosu nisbətən zəif olan əsərlərdə edir, obrazın sözlərinin məntiqini gücləndirirdi.

Görkəmli aktrisa Lütfəli Abdullayev, Bəşir Səfəroğlu, Hacıbaba Bağırov, Siyavuş Aslan kimi korifey sənətkarlarla tərəf-müqabili olub. Hər biri ilə də bənzərsiz ifa nümayiş etdirib. Azərbaycanın çağdaş teatr tarixində Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Siyavuş Aslan üçlüyünün özünəməxsus yeri görünür. Səhnə taleyi bu üçlüyü çox sıx birləşdirmişdi. Bu vəhdət oynanılan hər bir əsərin uğuru ilə nəticələnirdi. Ən uğurlu teatr tamaşalarından olan "Hicran"ın nailiyyətləri məhz bu üçlüyün istedad və əməyindən qaynaqlanıb.

Təkrarsız səhnə yaradıcılığına görə Nəsibə Zeynalova 1960-cı ildə respublikanın Əməkdar, 1967-ci ildə Xalq artisti adlarına, 1974-cü ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülüb.

Görkəmli səhnə xadimi, gülüş ustadı Nəsibə Zeynalova artıq 20 ildir dünyasını dəyişib. Buna baxmayaraq, onun tamaşaçısına bəxş etdiyi xoş ovqat, gözəl əhvali-ruhiyyə, gülüş və təbəssüm həmişə bizimlədir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Tarixi roman ustasının tarixə dönən ömür yolu

**Nənəsi Seyid Rübabənin dizinin dibində əyləşib axşam gördüyü yuxusunu danışırdı: "Gördüm, bir bulağın başındayam. Uzanıb su içirəm. Doqaqlarımdan tökülən damlalardan suyun üzündə xırda ləpəciklər əmələ gəlir". Nənəsi onun saçlarını oxşaya-oxşaya gülümsəyirdi: "Qızım, Fatimeyi-Zəhraya danışarsan yuxunu. Sən elə bir adam olacaqsan ki, sözün aləmə yayılacaq...**



Ömrünün ahıl çağlarında uşaqlıq illərinin bu əziz xatirəsi tez-tez canlanırdı gözlərinin önündə. Seyid Rübabə haqlı çıxmışdı. Sevimli nəvəsi Əzizə Cəfərzadə yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor kimi tanınmışdı..."

O, 1921-ci ildə Bakıda dünyaya gəldi. Ailənin ilki deyildi. Ancaq valideynlərinə övlad sevincini o, bəxş etdi. Ata-anasının ilki çox yaşamamışdı. Əzizə Cəfərzadədən sonra dünyaya gələn uşaqlardan ikisi uzunömürlü oldu. O, evin birinci övladı, iki qardaşın tək bacısı kimi böyüdü. Uşaq ikən onların ən çox qayğılarına qalan, qəhrini çəkən ana nənələri Seyid Rübabə oldu. Bu müdrik qadın gələcəyin görkəmli yazıçısının həyatında, dünyagörüşünün formalaşmasında böyük rol oynadı.

Əzizə Cəfərzadəni 1930-cu ildə nənəsi Bakıdakı 38 saylı orta məktəbin birinci sinfinə apardı. Amma Seyid Rübabə dindar qadın idi. Nəvəsinin ərəb dilini, Qurani-Kərimi də öyrənməsini istəyirdi. Balaca Əzizə əvvəlcə şəkili axund kimi tanınan Axund Hacı Fərəcullahdan, sonra isə Şeyxülislam Həkimzadədən dərs aldı. O, ərəb əlifbasını, ərəb və fars dillərini öyrəndi. "Qurani-Kərim" barədə biliyini təkmilləşdirən isə anası Böyükxanım oldu.

Əzizə Cəfərzadə ağlı kəsəndə ailələrinin bütün yükünün Seyid Rübabənin çəkdiyini gördü. Atası Məmməd Şamaxının Tağılı kəndində (indi Hacıqabul rayonunun ərazisi hesab olunur) yaşayırdı. Orda ikinci dəfə evlənmişdi.

Əzizə xanımgilin çətin günləri nənəsinin İrana gedişi ilə başladı. Anası bir müddət işlədi. Sonra evdə dərs dedi. Lakin bununla ailəni dolandırmaq mümkün deyildi. Seyid Rübabənin bərəkətli sandığı bir müddət dolanışıqlarına kömək etdi. Amma köməksiz qalan Böyükxanıma dayaq lazım idi. Evin böyük uşağı, artıq texnikum tələbəsi olan ondördyaşlı Əzizə işə düzəldi. Sonra makinaçılıq kursuna getdi. Oranı bitirib əvvəlcə "Bolşevik neftçi" qəzetində, sonra "Maarif-mədəniyyət" jurnalında işlədi.

1937-ci ilin dəhşətli repressiya günlərində Əzizə Cəfərzadənin "Ədəbiyyat və incəsənət" qəzetində "Əzrayıl" adlı ilk hekayəsi dərc olundu.

SSRİ məkanında yaşayan gənclərin çoxu kimi, o da təyyarəçi Çkalova bənzəmək istəyirdi. Cəhdləri Əzizə xanımı arzusuna çatdıra bilmədi.

1941-ci ildə müharibə başladı. Cəbhələrə gedənlərin sayı artdıqca məktəblər müəllimsiz qaldı. Xüsusilə kənd yerlərində pedaqoq çatışmırdı. Az-çox savadı olan qızlar dərs demək üçün kəndlərə göndərilirdi. Əzizə Cəfərzadə də Ağsu rayonunun Çaparlı kəndinə müəllim təyin olundu. Çaparlı xatirələri sonralar "40 ilə bərabər 4 il" əsərinə çevrildi.

Çaparlıdan qayıdandan sonra Azərbaycan Dövlət Universitetinə daxil oldu. Üç dəfə universitetdən çıxarıldı. Birində Tofiq Fikrətin ərəb əlifbasıyla yazılmış kitabını əlində tutdular. Digər qovulmalarının da səbəbi təxminən belə idi. Axır ki, ekstern yoluyla imtahan verib məktəbi bitirdi.

Əzizə Cəfərzadə ilk qismətinin ən böyük hədiyyəsi saydığı qızı Səmanı müharibə illərində itirdi. Qızı üç yaşında vəfat etdi.

1948-ci ildə ilk kitabı çapdan çıxmalı idi. "Hekayələr"in sınaq nüsxələrini mətbəədə görən tənqidçi Cəlal Məmmədovun qəzetdə məqaləsi işıq üzü gördü. Bu zaman Moskvada ədəbi mühit yenə gərginləşdi. Rusiyadan sonra növbə digər respublikalara da çatdı. Moskvanın göstərişi ilə Əzizə Cəfərzadənin "Hekayələr" kitabının sınaq nüsxələri yandırıldı. O, bundan sonra daha çox elmi sahəyə meyil etdi. Ancaq ədəbiyyatdan həmişəlik uzaqlaşmadı.

1951-ci ildə kiçik qardaşı, on yeddi yaşlı universitet tələbəsi Əhmədin Stalinə yazdığı şeir ələ keçdi. O, həbs ediləərək sürgünə göndərildi.

O, 1955-ci ildə uşaqkən eyni məhəllədə yaşadığı, aviasiya məktəbinə qəbul olunmaq üçün bir yerdə imtahan verdiyi Məmmədlə qarşılaşdı. Artıq peşəkar təyyarəçi olan Məmmədin evlənmək təklifini qəbul etdi. Məmməd Kamçatkaya işləməyə göndəriləndə Əzizə xanım da onunla getdi.

İlk kitabının sevincini 1963-cü ildə yaşadı. Sonralar neçə-neçə əsəri nəşr olundu. Alim kimi də, yazıçı kimi də istedadını göstərə bildi. Cild-cild əsərlərin, elmi araşdırmaların müəllifi oldu. Ancaq əsərləri Əzizə Cəfərzadəyə yalnız sevinc gətirmədi. Xüsusilə də tarixi romanlarına görə yazıçını tənqid edənlər, faktları təhrif etməkdə günahlandıranlar az olmadı. Ən çox Şah İsmayıl Xətaiyə həsr etdiyi "Bakı 1501" romanına görə tənqid edildi. Yazıçı bu tənqidlərin heç birini əsaslı saymırdı. Deyirdi ki, mən heç bir faktı dönə-dönə araşdırmadan, dəqiqləşdirmədən tarixi romanlarıma gətirməmişəm.

Əzizə Cəfərzadə tarixi roman ustası sayılır. Ancaq o, "Sahibsiz ev", "Əllərini mənə ver", "Sənsən ümidim", "Xəyalım mənim" kimi mövzusu müasir həyatdan götürülmüş bir sıra povestlərinin, "Qızımın hekayələri", "Anamın nağılları", "Çiçəklərim", "Pişik dili" və başqa uşaqlar üçün hekayə və nağılların da müəllifidir.

Vəfalı həyat yoldaşı Məmməd bilirdi ki, Əzizə xanımın vəsiyyətinə görə son mənzili əzizlərinin dəfn olunduğu Tağılı kənd qəbiristanlığı olacaq. Ona "Sən harada, mən də orada" deyirdi. 1995-ci ildə kənddə qonaq olduqları vaxt o, insult keçirdi. Tağılıda gözlərini əbədi yuman Məmməd orada torpağa tapşırıldı. 1999-cu ildə Əzizənin böyük qardaşı Məmməd, bir il sonra isə Əhməd həmişəlik köçdü Tağılı məzarlığına. Əzizə Cəfərzadə səksən bir yaşında, 2003-cü ildə vəfat etdi. Doğmalarının uyuduğu Tağılı məzarlığında torpağa tapşırıldı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Zərif imza

**Bu kiçik yazı özümüz - qadın jurnalistlər barədədir. O jurnalistlər ki, hamının haqqında yazır, amma özünü yaddan çıxarır, haqqında yazan az olur, ya da heç olmur.**

O jurnalistlər ki, Tanrının onlara lütf etdiyi qadınlıq missiyası ilə söz dünyası arasında körpü qururlar, çiyinlərində peşələrin ən çətini olan jurnalistliyin məsuliyyət yükünü, çantalarında isə təkcə qələm, bloknot, diktafon deyil, həm də valokardin, validol daşıyırlar. Və nəhayət, o jurnalistlər ki, ömür illərini peşəsindən dolayı sevinc və kədərli anlarla bir göz qırpımında başa vururlar.

Jurnalist xanımın bloknotunda təkcə yazacağı mövzu ilə bağlı faktlar olmur. O dəftərçədə istənilən məzmunda qeydlər görmək mümkündür - bu gün evə alınacaq ərzağın siyahısını, sabah qonaq gedəcəyi ailəyə alınacaq hədiyyəni, övladının istəyini və s.-ni. Hələ bu nədir ki?! İş otağında masanın üstündəki balaca kağız parçalarındakı qeydlər də qayğılardan xəbər verir. Bəzən bu yaddaş üçün yazılanları həyata keçirə bilmir, əsasən də vaxt və maliyyə azlığı üzündən. Bunlar jurnalist xanımın gün ərzində gördüyü işlərin cüzi bir hissəsidir. Daha çoxu ürəyində, ruhunda məskən salır.

Jurnalist qadının üzündə sirli cazibə, ovsunlayıcı təbəssüm olmaz. Olsa da bir an şimşək kimi çaxar və keçər. Bəzən bunu da hiss etməz, ya da anlamaz, nəyin nə olduğunun fərqinə varmaz. Çünki onun görəcəyi işlərin içində belə yaşantılara çox az yer var.

Jurnalist fəaliyyəti çox vaxt qadından ülvi duyğuları, pak hissləri gizlətməyi tələb edir. Sosial qayğıların, maddi tələbatların təsiri və təzyiqi altında bir ruh daşıdığını da unudur bəzən jurnalist xanım. O, arzular, problemlər və planlar fonunda kamilliyini, paklığını və zərifliyini qorumağa çalışır.

Jurnalist xanımın iş saatı yoxdur, ev işlərini qrafikə salmır. Gecəyarısı sabahın xörəyini bişirir, paltar ütüləyir, evi yığışdırır. Və bunların arasında beyni də dayanmadan çalışır. İşlərini görəndən sonra masa arxasına keçib yazmağa başlayır, bəzən səhərəcən işləyir. Çünki nömrəyə yazı verməlidir.

Yazı yazmaq, söz söyləmək peşələrin ən çətinidir. Bu çətin peşə ilə məşğul olan 24 saat çalışır, işdə, evdə, yolda beyni dayanmır. Yazının başlığından, süjetindən tutmuş son cümləsinəcən öncə beyində yazılıb sonra kağıza köçürülür. Bəzən də "ilişirsən", lazım olan sözü tapmaq üçün hətta dəqiqələrlə fikirləşməli olursan, kiçik bir düşüncənin ətrafında böyük "fırtına" qoparmağın yollarını axtarırsan. Və çox qəribədir ki, beyində dəyirman kimi fırlanan bu fikirlərin içində birdən hansısa bir məişət qayğısı da yada düşür. Qadın jurnalist vaxtdan vaxt oğurlayıb onu da həll edərək vaxtdan ucada dayanmağı bacarır.

Bəli, sözlə bir dünya qurmaq, yoluna çıxan əngəli aşmaq qadın jurnalistin adi işidir. Sözün içində bişmək, quru faktları, yorucu rəqəmləri incə və zərif cümlələrlə "bəzəmək" yalnız xanım jurnalistin məharətidir. Jurnalist cəmiyyətin güzgüsüdür, qadın jurnalist isə həm də bu güzgünü hər cür çirkdən qoruyur. Qadın jurnalistin yazısında humanistlik, xeyirxahlıq aydın sezilir. İstər müharibə mövzusu olsun, istərsə də ən qəddar cinayətkarlıq hadisəsi - qadın jurnalist ondan yazanda zərif duyğunun təsirindən çıxa bilmir.

Təəssüf ki, Azərbaycan mediası bu peşəyə təsadüfi gələnlərdən xali deyil. Bu təsadüflük qadınlarla bağlı olanda ikiqat məyusluq yaranır. Yazmaq üçün istedaddan savayı, masa arxasında oturmağı bacarmaq da lazımdır. Yaradıcı adam, xüsusilə qadın həmin bacarığın, istedadın sahibidirsə, ortaya qoyduğu "məhsul" da keyfiyyətli olur. Onun mətbuatda yeri görünür,



imzası axtarılır. Əks halda "təsadüflər" sırasına düşmək ehtimalı qaçılmaz olur.

Nə xoş ki, bu gün mediamızda sözü sevən, pərvanə kimi onun başına dolanan qadın jurnalistlərimiz çoxdur. Və nə yaxşı ki, onlar zərif imzaları ilə Azərbaycan mətbuatına naxış vurmaqdan yorulmurlar.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qazaxda Beynəlxalq Qadınlar Günü qeyd edilib

**Tədbirdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək bütün Azərbaycan qadınlarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.**

Qadınların ölkəmizin ictimai-siyasi həyatındakı rolundan danışan, onların dövlət idarəçiliyindən tutmuş ölkənin mədəni, pedaqoji, elmi həyatında öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirdiklərini vurğulayan natiq Azərbaycanda dövlət qadın siyasətinin əsasını Ümummilli Lider Heydər Əliyevin qoyduğunu, onu Prezident İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırmışdır.

Sonra rayon icra hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gulaya Həsənova, təqaüddə olan Əməkdar müəllim Bəsdi Ələkbərova, "Qazax Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsin direktoru Sevda Məmmədova çıxış edərək ölkəmizdə qadınlara hər zaman böyük qayğı göstərildiyini qeyd etmişlər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəallıq göstərən bir qrup qadına Qazax Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və hədiyyələr təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## 8 Mart Beynəlxalq Qadınlar Günüdür

# Körpə qəlblərin həyat döyüntüsü

## Anadangəlmə ürək qüsuru olan uşaqlar İcbari Tibbi Sığorta vasitəsilə əməliyyat edilərək sağlamlıqlarına qovuşdurulurlar

**Doğulduqdan sonra övladında ürək qüsurunun olduğunu öyrənəndə sanki gənc ananın qəlbinə ox sancılmış, qədəmləri qırılmışdı. Çarəsiz ana balasını bağrına basaraq başını onun sinəsinə qoymuş, zəif-zəif döyünən körpə qəlbinin həyat döyüntüsünü dinləyə-dinləyə acı göz yaşları tökmüşdü...**



Hələ nə yaşamışdı ki, övladı cəmi 7 aylıq idi. Amma bu körpə canıyla gözlərinin qarşısında ölüm-dirim savaşı verirdi. Hər ötən gün isə həyata tutunmaq şansı daha da azalırdı...

"Sevinc Tanrıdan ilk övlad payımızdır. Onun doğuluşu ailəmizə sevinc bəxş etmişdi. Amma bir neçə həftə əvvəl qızımı yüksək hərarətə görə xəstəxanaya aparandan sonra öyrəndiyimiz xəbərlə sevincimiz üzümüzdə soldu. Müayinə zamanı məlum oldu ki, anadangəlmə ürək qüsuru var. Təcili əməliyyat olunmalıdır. Yoxsa hər an onu itirə bilərik..."

Bir neçə gün əvvəl anadangəlmə ürək qüsuruna görə əməliyyat olunan körpənin anası Yaqut (adlar şərtidir) xanımla Liv Bona Dea Hospitalında həmsöhbət olduğumuz zaman bu kövrək duyğularını bizimlə bölüşdü.

Gənc ana danışır ki, övladının ürək əməliyyatı olunacağı təqdirdə sağalacağını eşidəndə çox seviniblər, lakin böyük maddi vəsait tələb edən bu əməliyyata imkanlarının çatmayacağı gerçəkliyi ilə üz-üzə qalanda sanki dünyaları başlarına uçub: "Demə, təlaşımız nahaq imiş. Bizə bildirdilər ki, dövlətimiz bu əməliyyatları öz vəsaiti hesabına həyata keçirir. İcbari tibbi sığorta sayəsində tezliklə qızım əməliyyat olundu. Getdikcə sağlığı yerinə gəlir.

Biz heç zaman öz imkanımızla bu cür bahalı əməliyyatı etdirə bilməzdik, o zaman isə... Bilirsiniz, övladımın xəstəliyini biləndə, mən də bu həyatdan əlimi üzdüm, çünki onsuz yaşaya bilməzdim... Sağ olsun dövlətimiz, bizim kimi imkansız ailələri, mənim kimi çarəsiz anaları övlad sınağı ilə üz-üzə qalmağa qoymur..."

### Uşaqların sağlamlığı dövlətin prioritetidir

Uşaqlar bizim gələcəyimizdir. Uşaqların sağlamlıqlarının layiqincə təmin olunması hər zaman dövlət siyasətinin prioriteti olub. Prezident İlham Əliyevin şəxsi diqqəti sayəsində bu istiqamətdə mühüm işlər həyata keçirilib. 2021-ci il aprelin 1-dən etibarən isə bütün ölkə üzrə tətbiqinə başlanılan icbari tibbi sığorta sayəsində uşaqların sağlamlıqlarına qovuşması üçün yeni və mühüm imkanlar açılıb. Bu imkanlara anadangəlmə ürək qüsurlarının aradan qaldırılması, yəni xəstəliyin ödənişsiz müayinəsi və müalicəsi də daxildir. Anadangəlmə ürək qüsuru olan xəstələrin əməliyyatları İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin müqavilə bağladığı özəl tibb müəssisələrində növbəlilik prinsipi əsasında həyata keçirilir.

Qaydaya əsasən, anadangəlmə ürək qüsuru ilə doğulan uşaqlar tibb müəssisələri tərəfindən Respublika Uşaq Klinik Xəstəxanasının uşaq kardioloji şöbəsinə yönləndirilməlidir. Şöbədə aparılan müayinələrdən sonra son diaqnoz qoyulur və əməliyyat üçün tibbi göstəriş olduğu təqdirdə özəl tibb müəssisələrinə göndəriş verilir.

### Belə uşaqların 90 faizindən çoxunda ürək qüsurları tamamilə düzəlir

Uşaq ürək-damar cərrahiyyəsi uzmanı Şiraslan Baxşəliyev məlumat verir ki, anadangəlmə qüsurlar dedikdə, uşaq doğulduqda onun müxtəlif orqanlarında olan çatışmazlıqlar və anomaliyalar nəzərdə tutulur. Onların içərisində ən çox rast gəlinəni isə anadangəlmə ürək qüsurlarıdır. Anadangəlmə ürək qüsurları hər yüz canlı doğumdan bir uşaqda görünür ki, bu da çox böyük rəqəmdir. Həkim bildirir ki, anadangəlmə ürək qüsurlarının fərqli formaları var. Məsələn, ürəkdə qulaqcıqlararası və ya mədəcikarası çəpər qüsurları olur. Daha mürəkkəb qüsurlar da var ki, bunlardan biri də damarlardakı darlıqlardır, belə körpələr doğulan zaman onların dərisində göyərmələr müşahidə edilir. Məsələn, ağciyər arteriyasına gedən damarda darlıq olduğuna görə həmin uşaqların qanındakı oksigen miqdarı aşağı olur.

"Anadangəlmə ürək qüsurlarının bir qismi tamamən əlamətsizdir və sadəcə, exokardioqrafiya ilə müəyyən olunur. Amma onların çox hissəsinin, kritik olan hissəsinin əlamətləri var", - deyən uzman həkim qeyd edir ki, uşaq doğulduqdan sonra tez-tez nəfəsalma, yaxşı qidalanmama, az qidalanma, qidalanmaya rəğmən yaxşı çəki ala bilməmə, qidalanan zaman yorulma, göyərmə və sair əsas rast gəlinən əlamətlərdir. Qüsurların bir hissəsi invaziv yolla, çox hissəsi isə cərrahi yolla, açıq və ya qapalı ürək əməliyyatı ilə bərpa olunur: "Sevindirici haldır ki, müasir tibbin vəziyyəti imkan verir ki, bu uşaqların 90 faizindən çoxunda ürək qüsurları tamamilə aradan qalxsın və onlar normal həyata davam etsinlər".



### Ürək xəstələrinin valideynləri üçün çox böyük imkanlar yaradılıb

Həkim söyləyir ki, anadangəlmə ürək qüsurları ilə bağlı icra olunan açıq ürək əməliyyatları tibbi olaraq həm reanimasiya dövrünü əhatə etməsi, həm xəstəxanada uzun yatış, həm də ixtisaslı kadrlar tələb etməsi baxımından bahalı müdaxilələr sayılır və bu, bütün dünyada belədir: "Buna görə də hər bir valideynin bu əməliyyatı etdirməyə maddi imkanı çatmırdı, çox az qisim valideyn bunu qarşılaya bilirdi: "Anadangəlmə ürək qüsurlu uşaqların əməliyyatları Azərbaycanda icbari tibbi sığortanın Xidmətlər Zərfində əks olunandan sonra, demək olar ki, vəziyyət düzəlib. Bu, ilk növbədə valideynlər üçün çox böyük imkandır. İcbari tibbi sığortanın tətbiqi həmçinin bu işlə məşğul olan peşəkar tibbi heyətin işlərinin asanlaşmasına gətirib çıxarıb. Bir misal da çəkim. Elə anadangəlmə ürək qüsurlu xəstələr də var ki, hələ icbari tibbi sığortanın tətbiqindən əvvəl onlara diaqnoz qoyulub, əməliyyat məsləhət görülüb, amma onu qarşılayacaq maddi imkanları olmadığına görə xəstə evə gedib və üstündən 2-3 il keçib. Həmin xəstələr də bu əməliyyatın icbari tibbi sığorta ilə edilməsinin mümkün olduğunu eşidəndən sonra təkrar bizə müraciət edirlər. Artıq belə əməliyyatlar icra etmişik.

### "Bu imkanı bizə yaratdığına görə dövlətimizə minnətdaram"

37 yaşlı Xəyalə Şərifova deyir ki, anadangəlmə ürək qüsuru olan 12 yaşlı övladı Elmir də dövlət hesabına əməliyyat olunub. Oğlunun artıq dörd gündür ki, əməliyyatdan çıxdığını bildirən valideyn sevinclə bildirir ki, hazırda övladının vəziyyəti stabildir: "Doğulandan sonra bildik ki, Elmirin ürəyində damar darlığı var, ürək qulaqcıqları dəyişilməlidir. Əvvəl bir dəfə əməliyyat olundu, lakin ikinci əməliyyat da lazım idi. Bu, riskli əməliyyat idi. Bunu etdirməyə isə maddi imkanımız çatmırdı. Eşidəndə ki, əməliyyatı icbari tibbi sığorta ilə qarşılamaq mümkündür, sevincimizdən ağladıq. Şükür Allaha, tezliklə övladım sağlamlığına qovuşacaq. Bu imkanı bizə yaratdığına görə dövlətimizə minnətdaram. İllərdir ki, hər anım oğlumu itirmək qorxusu ilə keçirdi. Artıq bu dəhşətli hisslər yoxdur, dövlətimiz, peşəkar həkimlərimiz sayəsində həyata qaytarılan Elmirlə birgə elə bilirəm ki, mən də həyata yenidən gəlmişəm..."

Bəli, bu dünyadakı ən müqəddəs missiyalardan biridir uşaqlara yenidən yaşam vermək, fidanların körpə qəlblərinin həyatdan qopmasının qarşısını almaq...

Yer üzündəki ən müstəsna missiyadır anaların üzünü güldürmək, çöhrələrindəki qəmi sevinclə əvəz etmək...

Və bütün bunların özü yaşamın davam etməsi anlamına gəlir...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qadınlar da hüquq sistemində pozitiv dəyişikliklərin baş verməsində mühüm rol oynayırlar

**Martın 7-də Baş Prokurorluqda 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib. Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev qadın prokurorluq işçilərini, dövlət qulluqçularını və veteran xanım əməkdaşları bayram münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində də uğurlar arzu edib.**





Baş prokuror 8 Mart Beynəlxalq Qadınlar Gününün uzun illərdən sonra ilk dəfə bütün ölkə ərazisində, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə qeyd edildiyini, bunun böyük bir tarixi hadisə olduğunu bildirib.

Vurğulanıb ki, 19 sentyabr 2023-cü il tarixdə keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz bütün Azərbaycan Respublikasında bərpa edilib, 15 oktyabr 2023-cü il tarixdə Müzəffər Ali Baş Komandan tərəfindən bayrağımız Xocalıda, Ağdərədə, Əsgəranda, Xankəndidə qaldırılmaqla həmin ərazilərdə Azərbaycan Respublikasının dövlət qurumlarının, o cümlədən prokurorluq orqanlarının fəaliyyəti bərpa edilib.

Cari il fevral ayının 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri zamanı xalqımızın növbəti dəfə öz müdrikliyini göstərdiyi və Azərbaycan xalqına müasir tarixinin ən böyük nailiyyətini bəxş etmiş Müzəffər sərkərdəsinin gördüyü işlərə cavab verərək layiqli Liderini yenidən prezident seçdiyi xüsusilə qeyd edilib.

Bu tarixi nailiyyətlərin əldə edilməsində Azərbaycan qadınlarının müstəsna rolundan danışan Kamran Əliyev Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründən başlayaraq Azərbaycanda qadınların ictimai fəallığının yüksək səviyyədə olduğunu, qadınların dövlət idarəçiliyinin müxtəlif səviyyələrində, parlamentdə, hökumətdə, hakimiyyət orqanlarında, elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə fəal rol oynadıqlarını diqqətə çatdırıb.

Ümummilli Liderimiz tərəfindən əsası qoyulan bu siyasətin dövlət başçısı cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyi qeyd edilərək, bunun nəticəsində ölkəmizdə qadın hüquqlarının yüksək səviyyədə qorunduğu, qadınlarımızın bütün strukturlarda ön sıralarda fəaliyyət göstərdikləri bildirilib.

Xüsusi qeyd olunub ki, ölkəmizin tərəqqisində və əldə olunan uğurlarda, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında dövlət başçısı cənab İlham Əliyevin ən sadiq silahdaşı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və yorulmaz fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Qadınların ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində də yüksək sədaqət və peşəkarlıq göstərdikləri, onların peşəkar hüquqşünas və qanun keşikçiləri olmaqla yanaşı, hüquq sistemində pozitiv dəyişikliklərin baş verməsində mühüm rol oynadıqları bildirilib.

Hazırda prokurorluq işçisi olan qadınlardan 105 nəfərin müsabiqə yolu ilə işə qəbul edildiyi vurğulanaraq diqqətə çatdırılıb ki, onlardan 10 nəfər rəhbər vəzifədə, o cümlədən 1-i idarə rəisi, 3-ü idarə rəisinin müavini, 1-i şöbə rəisi, 4-ü rayon prokuroru və 1-i rayon prokurorunun müavini vəzifəsində işləyir.

Prokurorluq orqanlarında uzun müddət fəaliyyət göstərmiş Əntiqə Qonaqova və Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Elfanə Bayramova çıxış edərək, göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm işlər görüldüyünü, həyata keçirilən gender bərabərliyi siyasətinin prokurorluq orqanlarında uğurla davam etdirilməsinin yüksək qiymətləndirildiyini vurğulayıblar.

Daha sonra xidməti fəaliyyətdə fərqlənən qadın prokurorluq əməkdaşlarına və veteran xanım əməkdaşlara mükafatlar təqdim olunub.

Tədbir zamanı prokurorluqda çalışan xanım əməkdaşların fəaliyyətinə həsr olunan "Zərif Güc" adlı qısametrajlı film nümayiş olunub.

# Gənclərin qazandığı uğurlar Azərbaycanın işıqlı sabahından xəbər verir

**Gənclər cəmiyyətimizin aparıcı qüvvəsidir. Bu gün onlar ölkə həyatının bütün sahələrində çalışır və üzərlərinə düşən tapşırıqları layiqincə yerinə yetirirlər. Harada çalışmalarından asılı olmayaraq həmişə böyük uğurlar qazanırlar. Çox sevindiricidir ki, gənclərimizin səsi, sorağı dünyanın ən aparıcı elm və təhsil ocaqlarından gəlir. Onların qazandığı ürəkaçan uğurlara əsaslanıb deyə bilərik ki, Azərbaycanın sabahı daha işıqlı və nurlu olacaq.**

Biologiya elminə yeni töhfələr verən, bu sahəyə yeniliklər gətirən gənclərimizdən biri də Nərgiz Kamal qızı Bayramovadır. Söhbət zamanı öyrəndik ki, o, 4 avqust 1990-cı ildə Bakı şəhərində anadan olub. Kiçik yaşlarından biologiyaya böyük maraq göstərdiyinə görə ixtisas seçimində çox fikirləşmədən bu sahəyə üstünlük verib. Söhbətimiz zamanı Nərgiz Bayramova biologiyaya olan dərin maraq və sevgisindən söz açdı. Dedi ki, bu sahəni seçməyində 4 il Bakı Slavyan Universitetinin humanitar liseyində təhsil almağının böyük rolu oldu: - Sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Biologiya və gigiyena" ixtisası üzrə bakalavr, 2014-cü ildə "İnsan və heyvan fiziologiyası" ixtisası üzrə magistratura pilləsini bitirmişəm. 2016-cı ildə Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun "Bitki fiziologiyası" ixtisası üzrə doktoranturasına qəbul olmuşam. Tədqiqat işim "GLRaV-3 patogenezi zamanı üzüm bitkisində fizioloji və anatomik dəyişikliklərin tədqiqi" mövzusuna həsr olunmuşdu. 2018-ci ildə ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutuna köçürülmüşəm. 2017-ci ildən təhsillə paralel olaraq Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Bioadaptasiya laboratoriyasında kiçik elmi işçi kimi fəaliyyətə başlamışam. Hazırda həmin laboratoriyada elmi işçi vəzifəsində çalışıram. Akademik İradə Hüseynovanın rəhbərliyi altında 13 noyabr 2023-cü ildə "Bitki fiziologiyası" ixtisasında biologiya elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyim dissertasiya işinin müdafiəsi keçirilmişdir. Ali Attestasiya Komissiyası Kollegiyasının 31 yanvar 2024-cü il tarixli qərarı ilə biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşəm. Tədqiqat işimdə ilk dəfə olaraq Azərbaycanda üzüm bitkisinin yarpaqlarında GLRaV-3 virusu ilə induksiya olunan fizioloji, biokimyəvi, anatomik və ultrastruktur cavab reaksiyaları kompleks şəkildə tədqiq edilmiş, həmçinin 2016-2022-ci illər üzrə ölkə ərazisində bu virusun yayılma dinamikası öz əksini geniş şəkildə tapmışdır.



Tədqiqat işimin nəticələri yerli və xarici jurnallarda çap olunan 10 məqalədə (o cümlədən Physiological and Molecular Plant Pathology (İF-2.747), Indian Journal of Science and Technology ("Web of Science" elmi məlumat bazasına daxildir) və 20 tezisdə öz əksini tapmışdır. Tədqiqatımın nəticələri "Dayanıqlı İnkişaf üçün Fotosintez Tədqiqatları" mövzusunda Beynəlxalq konfransda (Puşino, 2016), Biofizika və Molekulyar biologiya üzrə Gənclərin XVIII Qış Məktəbində (Qatçina, 2017), "Fotosintez və Dayanıqlı İnkişaf üçün Hidrogen Enerjisinin Tədqiqi" mövzusunda 10-cu Beynəlxalq konfransda (Sankt-Peterburq, 2019), həmçinin digər beynəlxalq və yerli konfranslarda məruzə edilmişdir. 2016-cı ildə elmdə fərqləndiyimə görə AMEA-nın fəxri fərmanına, 12-22 fevral 2018-ci il tarixlərində Pakistanın Karaçi şəhərində keçirilən hematologiya üzrə 5-ci Beynəlxalq təlimdə iştirak etdiyimə görə fərqlənmə sertifikatına layiq görülmüşəm.

Nərgiz Bayramova elmi işlərlə yanaşı, institutun ictimai həyatında da fəal iştirak edir. Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, AMEA GAMŞ-nin Biologiya və Tibb elmləri bölməsinin elmi katibidir. 2023-cü il 21-24 iyun tarixlərində Rusiya Federasiyasının Nijni Novqorod şəhərində keçirilən Ümumrusiya Gənc alim və tələbə elmi cəmiyyətinin "Müasir dövrün gənci" adlı XI qurultayının iştirakçısı olub.

Elm sahəsində qazandığı uğurlara əsaslanıb deyə bilərik ki, bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər və elm siyasətinin bacarıqlı bir nümayəndəsi kimi Nərgiz Bayramova bundan sonra da üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək, ona bəslənən etimadı əməli işləri ilə doğruldacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Adı özünə, özü adına layiq

**Qadın deyəndə fikrimizdə, xəyalımızda ilk olaraq sahilsiz sevgi və məhəbbətin dəyişməz ünvanı, canlı nümunəsi, gerçək bir xeyirxahlıq mələyi olan Ana obrazı canlanır. Böyük yaradanın cənnəti səxavətlə ananın ayaqları altına xalça kimi sərməsi çox incə və dəyərli mətləblərdən xəbər vermirmi? Allahın anaları belə şərəfləndirməsi insanlığa ünvanlanan bir yaddaş deyilmi?! Dünya var olandan söz, sənət xiridarları bu müqəddəs varlığa nə qədər şeirlər yazıb, nəğmələr qoşublar. Bu əbədi mövzu dünyaya gələn hər yeni nəsillə təzələnir. Hər gəlişi insanlıq üçün, təbiət üçün yeni olan yaz kimi, bahar kimi...**



8 Mart Beynəlxalq Qadınlar Günü dünyanın hər yerində olduğu kimi, zəngin mədəniyyət, milli-mənəvi dəyərlər beşiyi olan ölkəmizdə də təntənə ilə qeyd olunur. Bu elə bir gündür ki, təbiət qış yuxusundan oyanır, bənövşə, nərgiz çiçəklərinin ətri ilıq yaz mehinə qarışıb ruhumuzu oxşayır. Bu elə bir məqamdır ki, canlanan təbiətlə bərabər könlümüzdə yeni arzular doğulur, xoş duyğular oyanır. Qadınlar bayramı kimi tarixləşən 8 Martda insanlar ilk olaraq analarını, ərlər həyat yoldaşlarını, gənclər sevgililərini bir dəstə çiçəklə, hədiyyələrlə təbrik edər, xoş arzularını bildirərlər.

Biz isə təbrik üçün maraqlı bir ünvan seçdik. Adı özünə, özü adına layiq Etibar xanım Hüseynova Bərdədə yaşayıb çalışır. Rayonun ictimai həyatında fəal iştirak edir. Qarabağ Müharibəsi Veteranları, Şəhid Ailələri İctimai Birliyi Bərdə rayon təşkilatının rəhbəri, YAP rayon təşkilatı idarə heyətinin üzvü olaraq səmərəli fəaliyyəti ilə hər kəsin hörmətini qazanıb. Cəmiyyətin üzvlərini narahat edən problemlərə prinsipial müdaxiləsi ona mübariz qadın obrazı qazandırmışdır. Təsadüfi deyil ki, onun səmərəli fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. Etibar xanım Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür.

Birinci Qarabağ müharibəsi başlayanda Etibar xanımın ömür-gün yoldaşı Sərhad Zöhrabbəyov Bərdədə qabaqcıl kolxozlardan birinə sədrlik edirdi. Müharibə gündən-günə qızışır, ermənilər torpaqlarımızı işğal edirdilər. İşğal edilən kəndlərdən, şəhərlərdən doğma yuvasını, rahat ev-eşiyini tərk edən soydaşlarımızın xeyli hissəsi Bərdəyə sığınırdı. Bu ağrı-acılı, üzücü hadisələrə dözə bilməyən Sərhad axşam çay süfrəsində cəbhəyə getmək qərarını Etibar xanıma bildirdi. Etibar onu yaxşı tanıyırdı. Hələ tələbəlik illərində özünü əsl kişi kimi aparmağını, haqsızlıqla barışa bilmədiyini yaddaşına həkk etmişdi. Odur ki, onun qərarına etiraz etmək fikrindən uzaq idi. Amma bilirdi ki, Sərhadsız çətin olacaq. İki körpə uşağı - Zöhrabı və Reyhanəni böyütmək , zəruri qayğı ilə əhatə etmək asan deyildi. Yanağından süzülən iki damla göz yaşı süfrəyə düşəndə Etibar xəyaldan ayıldı:

- Get, əzizim. Allaha əmanət ol. Vətənimizin dar günündə düşmən qabağına kişilər, ərlər çıxmalıdır. Uşaqlardan bir zərrə nigaran qalma. Onları sənin arzuladığın kimi adına layiq tərbiyə edib boya-başa çatdıracam. Əlbəttə, biz bunu birlikdə edəcəyik.

Sabahı gün Sərhad ailəsi, dostları ilə görüşüb könüllü olaraq cəbhəyə yollandı. Axı o, həm də zabit idi. Bu müqəddəs savaşa qatılmamağı zabit şərəfinə sığışdıra bilməzdi. Qarabağ od tutub yanırdı. Düşmən böyük üstünlüklə hücuma keçir, kəndləri, şəhərləri viran qoyurdu. Ağır döyüşlərin birində Sərhad qəhrəmanlıqla həlak oldu. Canından artıq sevdiyi vətən torpaqlarının azadlığı uğrunda əbədiyyətə qovuşdu. Bu gün Bərdədə Sərhad Zöhrabbəyovun adını daşıyan küçə var.

Etibar üçün Sərhadsız çətin olsa da, o hər əzaba qatlaşdı. Azərbaycan qadını adının şərəfini uca tutaraq onun yadigarlarını - Zöhrabı və Reyhanəni qanadları altına alıb qorudu, ana nəvazisi ilə böyütdü. İndi Zöhrab ali təhsilli mütəxəssis kimi Bərdə Rayon İcra Hakimiyyəti Aparatında məsul vəzifədə çalışır. Qızı Reyhanə isə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Bərdə Rayon Məhkəməsində hakim köməkçisidir.

Adına yaraşan, valideyinlərinin verdiyi adı hünəri, fədakarlığı ilə doğruldan Etibar xanımı 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib ən xoş arzularımızı çatdırdıq. Təşəkkür etdi, minnətdarlığını bildirdi.

- Qayğı və diqqət üçün sağ olun. Mənim üçün ən dəyərli, ən qiymətli təbrik Qarabağımızın işğaldan azad edilməsi, düşməndən layiqli qisas alınmasıdır. İndi çox məmnunam. Hər gün təmasda olduğum şəhid ailələri də mənimlə oxşar ovqatı yaşayır. Biz xoşbəxtik ki, öz torpağına sahib çıxan Azərbaycan adlı qüdrətli bir dövlətin vətəndaşlarıyıq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 116

QƏRAR

Bakı şəhəri, 5 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 24 may tarixli 1344 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2022-ci il 27 aprel tarixli 1670 nömrəli və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 18 avqust tarixli 1812 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2385 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 24 may tarixli 1344 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2022-ci il 27 aprel tarixli 1670 nömrəli və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 18 avqust tarixli 1812 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2385 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 189 (Cild I) 1-1-ci hissəsi ləğv edilsin.

2. "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1954 (Cild I) 10-cu hissəsi ləğv edilsin.

3. "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın və "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 18 dekabr tarixli 564 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2512 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 17 nömrəli və 23 yanvar tarixli 38 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın 3-cü hissəsi ləğv edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın 3-cü hissəsi ləğv edilsin.

4. "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 noyabr tarixli 354 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1277 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

5. "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1353 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

6. "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1361 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

7. "Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 may tarixli 163 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 730 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

8. "Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 251 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1090 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

9. "Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 252 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1091 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 117

QƏRAR

Bakı şəhəri, 5 mart 2024-cü il

## "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2387 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2387 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 dekabr tarixli 507 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1608 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 dekabr tarixli 508 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1609 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 119

QƏRAR

Bakı şəhəri, 5 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 296-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 2021-ci il 17 iyun tarixli 1365 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 2021-ci il 17 iyun tarixli 1366 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 11 aprel tarixli 1661 nömrəli və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 680-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 28 dekabr tarixli 1941 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2395 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 296-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 2021-ci il 17 iyun tarixli 1365 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 2021-ci il 17 iyun tarixli 1366 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 11 aprel tarixli 1661 nömrəli və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 680-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 28 dekabr tarixli 1941 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2395 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müharibə veteranlarının reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 280 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 969 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 281 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 970 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin hərrac vasitəsilə satışı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 sentyabr tarixli 371 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1104 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 dekabr tarixli 445 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1780 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Milli maraqlara zidd olan əməllərin qarşısı qətiyyətlə alınır

**Artıq bütün dünyaya məlumdur ki, ABŞ və bir sıra Qərb dövlətləri özlərinin hədəflərində olan ölkələri nəzarətdə saxlamaq üçün fərqli metod və vasitələrdən istifadə edirlər. Ən optimal metodlardan biri də bu ölkələrdəki müxalifət təşkilatlarını qanunsuz maliyyələşdirmək və onların fəaliyyəti üçün şərait yaratmaqdır. ABŞ və Qərb ölkələri məqsədlərinə çatmaq üçün uzun illərdir icra mexanizmi formalaşdırıblar.**




Əsas məqsədlərinin üstünü ört-basdır etmək üçün xeyli sayda və müxtəlif adlarda donor institutları, yardım fondları yaradıblar. USAID, NED, Marşal Fondu, IREX və digər onlarla "beynəlxalq institutlar" məhz bu cür proqramların icraçıları kimi meydana çıxıblar. Onlar üzdə "demokratik inkişafa dəstək vermək" adı altında fəaliyyət göstərirlər, gizlində isə maraqlarına xidmət edən işlər görürlər. Bu məqsədlə yüksək məbləğdə qrantlar ayırır, pullar xərcləyirlər. Yerli icmaları maddi vəsaitlə şirnikləşdirərək legitim hakimiyyətlərə qarşı ictimai etimadsızlığa sövq edirlər. Bundan ötrü dəridən-qabıqdan çıxırlar.

Xarici təşkilatların dəstəklədiyi müxalifət qrupları deyəndə, təkcə müxalifətdə olan siyasi partiyalar nəzərdə tutulmur. Düzdür, əvvəllər metodologiya fərqli olub. Ayrı-ayrı ölkələrdə təxribatçı əməllər törədilməsi üçün konkret siyasi təşkilatlarla əməkdaşlıq edilib. Siyasi partiyalara kənardan maddi vəsait göstərilməsi qanunla qadağan edildiyi üçün onların ətrafında yedək kimi "QHT və KİV" cəmləşdirilib. Həmin "QHT" və "KİV"ə külli miqdarda "qrant vəsaiti" ayırmaqla, mərkəzdə dayanan siyasi partiyanın maliyyələşdirilməsi həyata keçirilib.

Son zamanlardakı əməllərindən hiss olunur ki, adlarını çəkdiyimiz təşklatlar məqsədlərinə daha tez çatmaq üçün əvvəlki variantları dəyişiblər. İndi daha müasir hesab etdikləri yeni variantların tətbiqinə çalışırlar. Bu gün əsas hesab olunan işlər təkcə siyasi partiyaların və siyasi fiqurların üzərində fokuslaşmır, "QHT" və "KİV"i hansısa siyasi partiyanın ətrafında cəmləyib onun vasitəsilə koordinasiya etmirlər. Həm də onlar milli düşüncəyə zidd olan, cəmiyyətin ab-havasını pozan marginal qrupları dəstəkləyirlər. Məsələn, ABŞ və Qərb ölkələri Azərbaycanda "radikal feminizm"in təşkilatlandırılıb aktivləşdirilməsində birbaşa iştirak edirlər. Bu işi daim diqqət mərkəzində saxlayır, maliyyələşdirirlər.

Radikal feministlər ailə institutuna qarşı çıxırlar, qeyri-ənənəvi münasibətləri təbliğ edirlər, illərdən bəri yaranmış milli mənlik şüurunu "geri zehniyyət" adlandırırlar. Qərb institutları radikal feministləri dəstəkləməklə, əxlaqdan, ənənədən kənar, milli mənliyini unutmuş cəmiyyət və o cəmiyyətdə yaşayacaq "insanlar" formalaşdırmağa çalışırlar. Qərb institutları radikal feminizmi dəstəkləyib təşkilatlandırmaqla, ölkədə ictimai-siyasi proseslərə müdaxilə etmək üçün yeni mexanizm hazırlayırlar. Bir sözlə, "milli feministlər" adı altında elə "çevik və işgüzar qrup" formalaşdırırlar ki, anti-Azərbaycan təyinatlı istənilən məsələdə bir işə yarıya bilsinlər. Artıq son zamanlar eyni modelin digər sahələrdə də tətbiq edildiyi müşahidə olunur.

Qərbin Azərbaycana qarşı qarayaxma kampaniyası apardığı ünvanlardan biri də "Toplum TV"dir. Toplum TV"nin redaksiyası "Demokratik Təşəbbüslər İnstitutu"nun (DTİ) ofisində yerləşdirilib. "Toplum TV"nin məqsədi guya insan hüquq və azadlıqlarını, ifadə sərbəstliyini ön planda tutaraq cəmiyyətin obyektiv informasiya ilə təmin olunmasına xidmət etməkdir. Bu şəbəkələr ayrı-ayrılıqda qurulmuş kimi görünsələr də, sonda eyni nöqtədən idarə olunduqları üzə çıxır. Ən maraqlısı isə odur ki, ayrı-ayrı göründüyü ehtimal edilən bu şəbəkələr arasında əlaqələndirici bağların necə qurulmasıdır. Həmin bağlar nəzərdən keçiriləndə, bu şəbəkələrin nə məqsədlə yaradıldığı və haradan idarə edildiyi bəlli olur.

Təbiidir ki, belə halların qarşısı qətiyyətlə alınmalıdır. Elə alınır da! DİN Mətbuat xidmətinin verdiyi məlumata görə, paytaxtın Nərimanov rayonu Y.V.Çəmənzəminli, ev 98 B ünvanında yerləşən ofisdə və əlavə digər ünvanlarda bir qrup şəxsin fəaliyyəti ilə bağlı daxil olan məlumat üzrə polis əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri keçirilib.

Qeyd edək ki, ABŞ və Qərb ölkələrinin bu əməlləri siyasi qarayaxma kampaniyasından başqa bir şey deyil. Bu prosesdə USAİD və Samanta Pauer başda olmaqla Qərb fondlarının, hüquq-müdafiə təşkilatlarının, mediasının rolu xüsusilə diqqəti cəlb edir. Şəbəkələrin qurulması və onların vasitəsilə ölkələrin daxilində qarşıqlıq yaradılması, sonra isə mövzunun Qərb mediası və QHT-ləri, daha sonra isə rəsmi müstəviyə keçirilməsi yalnız və yalnız çirkin məqsəd daşıyır.

Uzun illər ərzində xarici qüvvələrin Azərbaycanda qurduqları şəbəkə vasitəsilə qarışıqlıq yaratmaq cəhdləri uğursuzluğa düçar olub. Belə çirkin metodlarla daxili sabitliyə xələl gətirmək cəhdlərinin qarşısının vaxtında alınması ölkəmizin daim artan gücünün, qüdrətinin müsbət göstəricisidir.

Azərbaycan xalqının milli maraqlarına, Azərbaycan dövlətinin əleyhinə qarşı fəaliyyət göstərən "Toplum TV" kimi şəbəkələrin müəyyən edilməsi və neytrallaşdırılması olduqca vaxtında atılmış bir addımdır. Bundan sonra da ölkə daxilində sabitliyi, əmin-amanlığı pozmağa yönələn bütün cəhdlərin qarşısı qətiyyətlə alınacaq. Xalqımızın milli maraqlarına zidd olan pozuculuq əməlləri törədənlər kimliyindən asılı olmadan layiqli cəzalarını almalıdırlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Qərbin antiazərbaycançı şəbəkəsi ifşa olunur

**"Ölkəmizdə fəaliyyət göstərən bəzi media qurumlarının Qərb siyasi dairələri tərəfindən maliyyələşdirilməsində məqsəd Azərbaycanda qarışıqlıq yaratmaqdır. Ona görə də Toplum TV-nin fəaliyyətinə hüquqi müstəvidə qiymət verilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsindən sonra Qərbin bəzi siyasi dairələrinin köhnə ab-havada danışacaqları, Azərbaycanı insan haqlarının və demokratik dəyərlərin pozulmasında ittiham edəcəkləri istisna edilmirdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, Qərb institutları və onların maliyyələşdirdiyi qurumlar Azərbaycana qarşı yenə qarayaxma kampaniyasına başlayıblar: "Azərbaycanı guya insan hüquq və azadlıqlarının pozulması, mediaya qarşı təqib siyasətinin həyata keçirilməsi və digər bu kimi məsələlərdə ittiham edirlər. Lakin gün kimi aydındır ki, bu ittihamların heç bir əsası yoxdur. Əvvəla ona görə ki, demokratik inkişaf yolunu seçmiş və bu yolda inamlı addımlarla irəliləyən Azərbaycan belə ucuz vasitələrə ehtiyac duymur. İkincisi isə, demokratiya bir prosesdir, yəni orada son nöqtə yoxdur. Demokratiyanın zirvəsində olduğunu iddia edən dövlətlər birmənalı olaraq yanılır və dünya ictimaiyyətini də yanıltmağa çalışırlar. Sadəcə, demokratiya yolunu seçən dövlətlər hər dəfə növbəti mərhələyə keçid edir və prosesi davam etdirirlər. Azərbaycan da demokratik inkişaf yolu ilə gedir və bu istiqamətdə çox ciddi islahatlar həyata keçirir".

Elman Nəsirovun sözlərinə görə, ayrı-ayrı şəxslər və yaxud hansısa media qurumu ilə bağlı hüquq-mühafizə orqanlarının hərəkətə keçməsinə gəlincə isə, burada günahkar onların elə özləridir: "Ölkəmizdə media qurumları və ya jurnalistlər heç bir halda siyasi mövqelərinə görə təqib olunmurlar. Toplum TV-nin bir neçə əməkdaşının saxlanılmasının səbəbi isə axtarış zamanı aşkarlanan cinayət əməlləridir. Məhkəmə həmin şəxslərlə bağlı müvafiq qərarlar qəbul edəcək. Ortada cinayət əməli varsa, bu əməli törədənlərin siyasi baxışları, onların əqidəsi və sairə kimi amillərin məsələyə heç bir aidiyyəti yoxdur. Cinayət törədilirsə, cinayətkar cəzalandırılmalıdır".

Deputat vurğulayıb ki, heç kim qanunun fövqündə dayana bilməz və heç kimin toxunulmazlıq hüququ yoxdur: "Demokratik inkişaf yolunu seçmiş bütün hüquqi dövlətlərdə cinayət faktı aşkarlandığı halda, onu törədən mütləq cəzalandırılır. Əksinə, cinayətkarların cəzasız qalması dövlətin sütunlarına çox ciddi zərbə vurar və ictimaiyyətdə dövlətə inamsızlıq yaranar. Bu gün xalqımız dövlət siyasətini birmənalı müdafiə edir. Çünki bizim işimiz haqq işidir və heç kim daxili işlərimizə qarışa bilməz. Bu nöqteyi-nəzərdən Qərbin bəzi siyasi dairələri təzyiqlərini dayandırmalıdırlar və baş verənlərdən dərs almalıdırlar".

Elman Nəsirov yekunda deyib ki, Qərbin maliyyələşdirdiyi növbəti media qurumunun ifşa olunması ilə xarici mediada ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası genişlənib. Lakin ölkəmizi hədəfə alan əsassız ittihamlarla dolu materiallar dərc edən, bizə qarşı təzyiqlərini artıran Qərb siyasi dairələri belə cəhdləri ilə Azərbaycanı öz daxili məkanını qeyri-qanuni fəaliyyətlərdən qorumaqdan çəkindirə bilməz.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Orta dəhlizin önəmi artır

## Zəngəzur dəhlizinin açılması Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üçün mühüm töhfə ola bilər




**Avropa ölkələrinin enerji təminatçısı və etibarlı tərəfdaşı kimi qəbul olunan Azərbaycan Avrasiyada həm də nəqliyyat-ticarət körpüləri yaradır. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi Azərbaycan yüklərin Asiyadan Avropanın müxtəlif istiqamətlərinə təhlükəsiz və ən əlverişli imkanlar daxilində daşınması üçün rahat tranzit marşrutu yaradıb.**

Xəzər dənizi, Beynəlxalq Dəniz Ticarəti Limanı, "Bakı-Tbilisi-Qars" dəmir yolu, Ələt Azad İqtisadi Zonasının yaratdığı imkanlar bir daha təsdiq edir ki, Azərbaycan Qafqazda ən əlverişli nəqliyyat-tranzit habıdır.

İkinci Qarabağ müharibəsindəki Şanlı Zəfərin yaratdığı reallıq fonunda isə Azərbaycan Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) daha səmərəli və etibarlı marşrut olması üçün çox mütərəqqi təkliflər irəli sürür. Bunlardan biri də Zəngəzur dəhlizinin açılmasıdır.

### Savaşlar, toqquşmalar qədim İpək yolunun yenidən canlanmasını şərtləndirir

Son iki ildə Ukrayna və Qəzza bölgəsində baş verən hərbi toqquşmalar, eləcə də qiyamçı husilərin Qırmızı dənizdə ticarət gəmilərinə qarşı silahlı hücumları Avropa dövlətlərini Asiya ilə ticarət əlaqələrini davam etdirmək üçün yeni marşrutlar axtarmağa vadar edib.

Məlum hadisələr və qlobal siyasətdəki gərginlik, yükdaşımaların qiymətini artırmaqla yanaşı, Avropada inflyasiyanın artmasına da təsir edir. Savaşlar və gəmilərə silahlı hücumlar qlobal marşrutlarda təhlükəsizlik məsələlərinin həlli üçün ayrılan xərclərin də artmasını şərtləndirib. Bu da, əlbəttə ki, bahalaşmaya səbəb olur.

Məhz bu reallıqları nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, bu gün Avropa ilə Asiyanı əlaqələndirən Trans-Xəzər marşrutunun, yəni Orta dəhlizin əhəmiyyəti artır.

Çünki Çin-Mərkəzi Asiya-Azərbaycan və Gürcüstandan Qara dənizə və Avropaya uzanan bu dəhliz yükdaşıma xərclərinin aşağı olması ilə yanaşı, həm də təhlükəsizdir. Çindən Avropaya Cənub dəhlizi ilə daşınan yüklər Süveyş kanalından keçməklə 20 min kilometr məsafəni əhatə edir. Lakin konteyner daşıyan qatar Orta dəhlizlə 12 gün ərzində 7 min kilometr məsafəni qət edəcək ki, bu da nəqliyyat xərclərinin az olması ilə yanaşı, təhlükəsizliyin də təmin olunmasını şərtləndirəcək.

Çin-Mərkəzi Asiya-Azərbaycan və Gürcüstan ərazisindən keçən marşrut ilə yüklər Qara dənizə, buradan isə Türkiyə və Şərqi Avropa ölkələrinə çatdırılacaq. O həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına təkan verəcək.

Orta dəhliz vasitəsi ilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Bu dəhlizin əhəmiyyətini artıran digər məsələ isə Rusiya-Ukrayna müharibəsidir. Çünki Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması Orta dəhlizə olan marağı da artırıb. Bu baxımdan dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

Azərbaycan Orta dəhlizin reallaşması üçün çox mühüm addımlar atmaqdadır. Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşdırılan layihələr bunun bariz təcəssümüdür.

Dünyada qlobal layihələrin müəllifi, təşəbbüskarı kimi tanınan Prezident İlham Əliyev bu barədə həm xarici ölkələrə səfərlərində, həm ölkə daxilində keçirdiyi görüşlərdə, beynəlxalq forum və konfranslardakı çıxışlarında çox əhatəli şəkildə məlumat verir. Azərbaycan Prezidenti həm görülən işlərdən danışır, həm dəhlizin yaradacağı imkanları izah edir, həm də dəhliz üzərindəki ölkələri bu prosesə dəstək verməyə çağırır.

İlham Əliyev əminliklə vurğulayır ki, Azərbaycan Zəngəzur dəhlizini reallaşdırdıqdan sonra ilk növbədə türk dünyası ölkələri üçün çox əlverişli imkanlar yaranacaq. Eyni zamanda Asiyadan Avropaya ən qısa marşrutun yaranması, qədim İpək yolunun yenidən canlanmasını və ən əlverişli nəqliyyat-ticarət xəttinə çevrilməsini şərtləndirəcək.

Fevralın 19-da Ankarada Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşündə qardaş ölkənin dövlət başçısı da bu məsələyə toxunaraq bildirmişdi ki, geosiyasi nizama təsir edən koronavirus pandemiyası və Ukrayna müharibəsi kimi proseslər Orta dəhlizin etibarlı marşrut olduğunu bir daha göstərib. 2017-ci ildə açılan "Bakı-Tbilisi-Qars" dəmir yolu xətti Orta dəhlizin strateji mərhələsi olub. Bu xətdəki işlərin ən qısa zamanda başa çatdırılması və xəttin tamamilə işlək vəziyyətə gətirilməsi ortaq mənfəətə xidmət edir.

### Zəngəzur dəhlizinin əhəmiyyəti

Qlobal təşəbbüsləri ilə Avrasiyada yeni nəqliyyat-tranzit habları yaradan İlham Əliyev Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini dəyərləndirərkən qeyd edib ki, Azərbaycan ərazisindən, yəni Xəzər dənizi ilə daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır və daha da artacaq. Ona görə Azərbaycan nəqliyyat və logistika imkanlarını genişləndirir. Bakı Dəniz Limanının imkanları 25 milyon tona yüksəldilir, dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyəyə gətirilir. Bütün bunların fonunda isə Zəngəzur dəhlizinin açılması da əsas şərtlərdən biridir. Ona görə də Azərbaycan bu dəhlizin açılmasında israrlıdır: "Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək".

Orta dəhlizin fəaliyyəti həm də Türk Dövlətləri Təşkilatı arasında ticarət dövriyyəsinin həcmini artıracaq. Martın 7-də iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov "Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar" mövzusundakı konfransda deyib ki, Azərbaycanla Türk Dövlətləri Təşkilatı arasında ticarət dövriyyəsinin həcmi 2023-cü ildə 9 milyard dollar olub.

Göründüyü kimi, Orta dəhlizin açılması zərurəti yaranıb. Şanxayda fəaliyyət göstərən Fudan Universitetinin "Bir kəmər, bir yol və qlobal idarəetmə" institutunun baş direktoru Renvey Xuan bildirib ki, Orta dəhlizin inkişafında həm Avropa İttifaqı, həm də Şərqi Asiya dövlətləri maraqlıdırlar.

Hazırda Orta dəhlizlə yükdaşımalar artmaqda davam edir və bu artımda "Bakı-Tbilisi-Qars" dəmir yolu əhəmiyyətli rol oynayır. Dəmir yolu ilə Azərbaycan ərazisindən tranzit yükdaşımalar 2019-cu illə müqayisədə 2023-cü ildə 76 faiz artaraq 3,8 milyon tondan 6,7 milyon tona çatıb. Yaxın gələcəkdə bu rəqəmlərin dəfələrlə artacağını müşahidə edəcəyik. 2020-ci ildə Qarabağı işğaldan azad edən Azərbaycan bölgədə yeni geosiyasi reallıqlar yaradıb ki, bu da beynəlxalq xarakter daşıyan tranzit yükdaşımalar üçün çox önəmlidir. Trans-Xəzərlə Çindən Azərbaycana daxil olan tranzit yüklər yalnız "Bakı-Tbilisi-Qars" dəmir yolu ilə Qara dəniz limanlarına deyil, eyni zamanda Zəngəzur dəhlizi ilə Türkiyəyə, oradan isə Qərbi Avropa ölkələrinə daşınacaq.

Bir sözlə, Zəngəzur dəhlizinin açılması həm Azərbaycanın Qafqazda mühüm nəqliyyat-tranzit habına çevrilməsini, Naxçıvanın yüksəlişini təmin edəcək, həm də Orta dəhlizin fəaliyyətinə mühüm töhfə verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Tarixi İpək yolu mərkəzi dəhliz rolunu oynamağa başlayır

**Son illər baş verən hadisələr fonunda şimal dəhlizlərindən istifadənin təhlükəli hal alması bu marşrutlara olan inamı azaldıb. Xüsusən Rusiya-Ukrayna müharibəsinin başlaması ilə yüklərin daşınmasında digər dəhlizin maraq obyektinə çevrilməsi gündəmdədir. Bu baxımdan 2014-cü ildə yaradılan, ilk vaxtlarda bir çox dövlətlərin maraq dairəsində olmayan Orta dəhliz müasir çağırışlar fonunda əhəmiyyətini artırır.**

Artıq narazı ölkələr Avropa və Asiyanı birləşdirən ən qısa marşrut üzrə yük daşımalarının təhlükəsiz şəraitdə həyata keçirilməsində maraqlıdırlar.

Mövzu ilə əlaqədar "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Sahib Alıyev qeyd edib ki, Rusiya-Ukrayna savaşı başlayandan Orta dəhliz getdikcə mərkəzi dəhliz rolunu oynamağa başlayıb.

Deputat bildirib ki, bu dəhliz üçün yeganə problem marşrutun daha çox ölkənin ərazisindən keçməsi və tələbi ödəmək üçün insfrastrukturun tam hazır olmaması ilə bağlı idi: "Dəhliz boyu ölkələr artıq bununla bağlı xeyli optimallaşdırıcı addımlar atıblar. Bu yaxınlarda Qazaxıstan parlamenti də qanunvericilik aktı qəbul etdi. Türkiyə ilə Qazaxıstan arasında yüklərin



daşınma vaxtı bu akt nəticəsində təxminən iki dəfədən çox azalacaq. Avropa Komissiyası da Orta dəhliz boyunca insfrastruktura 10 milyard avro vəsait ayrılmasını planlaşdırır. Hətta bu dəhlizin varlığı maraqlarına çox da cavab verməyən ölkələr onun bütün gücü ilə işləməsini istəyirlər".

Sahib Alıyev gələcəkdə Orta dəhlizin qarşısında indikindən daha artıq imkanlar açılacağını bildirib. Statistika da göstərir ki, bu dəhlizin üzərindən daşınan yüklər sürətlə artmaqdadır. Çox sevindirici haldır ki, bu dəhliz üzərindəki ölkələr arasında belə bir çağırışa daha çox hazır olan dövlət məhz Azərbaycandır.

Deputat vurğulayıb ki, Azərbaycan lap əvvəldən nəqliyyat habına və logistika mərkəzinə çevrilməsi üçün əlindən gələni edib. Növbəti mərhələdə ölkəmiz üçün önəmli olan dəhliz boyunca dəyər zəncirinin yaradılmasıdır. Hazırda bununla bağlı hazırlıqlar gedir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**Mərkəzi Seçki Komissiyasında**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə martın 7-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın fevralın 1-də, 5-də və 11-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunması məsələsinə baxılıb. Aparılan müzakirələrdən sonra 65 saylı Salyan-Biləsuvar-Neftçala, 77 saylı Lənkəran şəhər və 81 saylı İmişli seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

Media nümayəndələrinin iştirak etdikləri iclasda həmçinin cari məsələlərə baxılıb.

QƏRAR № 11/37

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 1 fevral, 5 fevral və 11 fevral tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 1 fevral, 5 fevral və 11 fevral tarixli iclaslarının protokolları təsdiq edilsin.

*Sədr Məzahir Pənahov*
*Müavin Rövzət Qasımov*
*Katib Arifə Muxtarova*
*Üzvlər Fuad Cavadov*
*Şaitdin Əliyev*
*Bəxşeyiş Əsgərov*
*Nailə Əsgərova*
*Tofiq Həsənov*
*Ramiz İbrahimov*
*Validə Kazımova*
*İlham Məmmədov*
*Nizami Nadirxanlı*
*Qabil Orucov*
*Hüseyn Paşayev*
*Almas Qəhramanlı*
*Etibar Quliyev*
*İlkin Şahbazov*

*07.03.2024*

QƏRAR № 11/38

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Səlamət Musa oğlu Kərimov 65 saylı Salyan-Biləsuvar-Neftçala, Kərim Allahverdi oğlu Heydərov 77 saylı Lənkəran şəhər, İlham Xudaş oğlu Abdulov 81 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. İqbal Musa oğlu Rəcəbov 77 saylı Lənkəran şəhər, Abbas Ələmdar oğlu Quliyev 81 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

*Sədr Məzahir Pənahov*
*Müavin Rövzət Qasımov*
*Katib Arifə Muxtarova*
*Üzvlər Fuad Cavadov*
*Şaitdin Əliyev*
*Bəxşeyiş Əsgərov*
*Nailə Əsgərova*
*Tofiq Həsənov*
*Ramiz İbrahimov*
*Validə Kazımova*
*İlham Məmmədov*
*Nizami Nadirxanlı*
*Qabil Orucov*
*Hüseyn Paşayev*
*Almas Qəhramanlı*
*Etibar Quliyev*
*İlkin Şahbazov*

*07.03.2024*

# Qafqaz Müsəlmanları İdarəsi Ramazan ayının başlanması ilə bağlı fətva verib



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Ramazan ayının başlanması ilə bağlı fətva verib. AZƏRTAC fətvanın mətnini təqdim edir:**

"Bismillahir-rəhmanir-rəhim!

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası mübarək Ramazan ayının başlanması münasibətilə dünya və ölkə müsəlmanlarını təbrik edir, müqəddəs orucluq ayında ibadətlərimizin qəbula yetməsini Uca Allah-taaladan diləyir. Ramazan ayı və orucu İlahi əmrdir, bu barədə Qurani-Kərimdə belə buyurulur:

"Ramazan ayı insanlara doğru yol göstərən və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə oruc tutsun..." (Bəqərə, 185).

Sonsuz nemətləri ilə bizi mükafatlandıran Uca Rəbbimizə raz-niyaz edirik ki, "Qurani-Şərif"in nazil olduğu, min aydan xeyirli Qədr gecələrinin qərar verildiyi mübarək Ramazani-şərifdə vacib oruc ibadətimizi layiqincə yerinə yetirməkdə və fəzilətləri ilə əxlaqımızı kamilləşdirməkdə yardımçımız olsun! Əziz Peyğəmbərimiz (s) belə buyurmuşdur:

"Ramazan ayı daxil olduğu zaman səmanın qapısı açılar, cəhənnəmin qapıları bağlanar və şeytanlar zəncirlənər".

Qazılar Şurası builki Ramazan fətvasını dindarlarımızın nəzər-diqqətinə təqdim edir və bildirir ki, Qafqaz Müsəlmanları İdarəsinin müvafiq sorğusuna əsasən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının 32/33 saylı və 2024-cü il 28 fevral tarixli cavab məktubuna görə, bu il Ramazan ayının 1-i miladi təqvimlə mart ayının 11-nə təsadüf edəcəkdir, inşallah!

Ərəfəsində olduğumuz on bir ayın sultanı olan Ramazanın gəlişi xalqımız üçün bu il də çox əlamətdardır. Çünki bu mübarək ayı Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfərin sevinci ilə yanaşı, separatçı rejimin süqutu - müqəddəs Bayrağımızın Xankəndidə dalğalanması qüruru ilə qarşılayırıq. Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində qalib Xalq - qalib Lider seçiminin qələbə sevinci bu Ramazanda xeyir-dualarla yad ediləcəkdir. Ramazani-şərifin gəlişi münasibətilə sözü imzası qədər keçərli, siyasi iradəsi, prinsipiallığı ilə ən yeni Azərbaycan tarixində Qarabağ Fatehi və Böyük Qayıdışın Müəllifi adı qazanan, ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpası kimi tarixi vəzifəni yerinə yetirən və prezidentliyinin yeni mərhələsinə qədəm qoyan dövlətimizin başçısı İlham Əliyevə, eləcə də bu çətin yolda yaxın sirdaşı və yoldaşı - Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dindarlarımız adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan can-sağlığı diləyirik.

Əziz müsəlman qardaş və bacılar, islamın təməl prinsiplərindən olan oruc ibadəti insanı təkəbbür və şöhrətpərəstlikdən uzaqlaşdıran, insanlar arasında birliyi, qardaşlığı, haqqı və ədaləti bərqərar edən, bəşər övladını iman və təqvaya yaxınlaşdıran ibadətdir. Oruc ibadəti insanın haramlardan qorunması üçün bir imtahandır, Allahın insana bəxş etdiyi iradəni gücləndirən, səbri və dəyanəti bütünləşdirən, arzu, ehtiras və nəfsin önünə qalxan kimi sədd çəkən vasitədir. Ramazanda Quran oxumaq, elm-irfan və ibadətlə məşğul olmaq, iftar süfrələri açmaq, xeyriyyəçilik etmək, ehtiyaclı şəxslərə, kimsəsizlərə, uşaq evlərinə, ahıl və qocalara köməklik göstərmək, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək İlahi məqamda bəyənilən əməllərdəndir və savabdır. Tövsiyə edirik ki, duaların qəbul olunduğu bu mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, şəhid və qazi ailələrinə qayğı və diqqət göstərilsin. Qazılar Şurası din xadimlərimizin və yerlərdəki imamlarımızın nəzərinə çatdırır ki, Ramazanın vacibatları, qayda və qadağaları, müstəhəb əməlləri barədə dindarlara ətraflı şəkildə məlumatlar və şərhlər verilsin. Xüsusi olaraq bir daha din xadimlərimizə xatırlatmaq istərdik ki, iftardan öncə məclislərdə ehsan verilməsi qəti qadağandır, çünki Allahın hökmü, Peyğəmbərin əmri ilə ehsan adı ilə iftardan əvvəl süfrə açılması şəri baxımdan haram əməldir.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edib. Bu təqvim İdarəmizin internet saytında **(www.qafqazislam.com)** yerləşdirilib. Digər mənbələrdən daxil olmuş, təfriqə xarakterli, məzhəb və vaxt ayrı-seçkiliyinə səbəb ola biləcək təqvimlərin din xadimləri və dindarlarımız tərəfindən istifadəsi qeyri-məqbuldur. Bütün kütləvi informasiya vasitələrinin məhz QMİ-nin təqviminə istinad etmələri tövsiyə olunur. İnşallah, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Eydül-Fitr - Ramazan bayramının tarixi barədə əlahiddə məlumat verəcək.

Rəhman və Rəhim Allahdan duamız budur ki, yeni dövrünü yaşayan ölkəmizi və xalqımızı, dövlətçiliyimizin təminatı olan müdrik ölkə başçımızı və müzəffər ordumuzu bəlalardan hifz edib qorusun, bayrağımızı uca, dövlətimizi və dinimizi daimi etsin, bu mübarək ayın xeyir və bərəkətindən Vətənimizin və millətimizin nəsibini versin! Qadir Allah oruc və namazlarımızı qəbul etsin, bizi məğfirət və mərhəmətinə nail olan bəndələrindən qərar versin. Amin!

Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuh!".

# İlkin mərhələdə azad olunan ərazilərə köçürülən 12 min şəxs peşə hazırlığına cəlb ediləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində "Əhalinin peşə hazırlığının təşkili" mövzusunda "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Elşad İskəndərov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, digər dövlət qurumlarının və özəl tədris müəssisələrinin nümayəndələri iştirak ediblər.

M.Abbasbəyli bu kimi tədbirlərin işğaldan azad olunan bölgələrə köçürülən vətəndaşların məşğulluğunun təminatında mühüm dəstək olduğunu vurğulayıb. Qeyd edilib ki, ilk mərhələdə müvafiq işçi qrupu işğaldan azad olunan ərazilərimizə qayıdışı planlaşdırılan 311 min şəxsin təhlilini (demoqrafik, məşğulluq və sosial göstəricilər) həyata keçirib. Qayıdış prosesində 256 işəgötürənlə görüş keçirilib, işçi qüvvəsinə olan tələbat öyrənilib, köçürülən sakinlərdən artıq 1495 şəxsin məşğulluğu təmin edilib, 979 nəfərin isə məşğulluğunun təmin olunması istiqamətində işlər davam etdirilir. Özəl sektorla əməkdaşlıq nəticəsində bu işlərin əhatəsi getdikcə genişlənir. Həmçinin əsas prioritetlərdən biri həmin ərazilərdə ehtiyac olan peşələrə dair tələbləri öyrənmək və gələcəkdə bu peşələr üzrə kurslar təşkil etməkdir. Bu sahədə özəl sektorla əməkdaşlığa xüsusi önəm verilir. Tədbir iştirakçılarına işğaldan azad olunan ərazilərə köçürülən sakinlərin yeni peşələrə yiyələnməsi üçün agentliyin həyata keçirdiyi və təşkili planlaşdırılan peşə kursları barədə məlumat verilib. Bildirilib ki, ilkin mərhələdə həmin ərazilərdə 12 min şəxsin peşə hazırlığına cəlbi nəzərdə tutulub. Ötən il Bərdədə açılışı olan Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi bu sahədə mühüm rola malikdir.

Tədbirdə özəl tədris müəssisələrinin işğaldan azad edilmiş ərazilər üzrə peşə hazırlığının təşkili prosesinə cəlb edilməsi, onların bu sahədə səmərəli fəaliyyətinin təşkili məsələləri, habelə iştirakçılar tərəfindən irəli sürülən təkliflər müzakirə olunub.

# Azərbaycan keçən il rusiyalı turistlərin üz tutduğu ölkələr sırasında birinci yerdədir

**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevlə Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov arasında görüş keçirilib.**

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev ölkəmizdə turizm sahəsinin inkişafına dövlət səviyyəsində xüsusi diqqətin ayrıldığını, 2023-cü ildə xarici ziyarətçilərin sayında 2022-ci illə müqayisədə 30 faiz artımın olduğunu qeyd edib. O, Rusiyanın Azərbaycan üçün mühüm turizm bazarı olduğunu, Rusiya vətəndaşlarının 2023-cü ildə gələn ziyarətçilərin 30 faizini təşkil etdiyini, iki ölkə arasında turizm sahəsində çoxtərəfli əməkdaşlıq potensialının mövcudluğunu vurğulayıb. Agentlik sədri həmçinin bu il martın 5-də imzalanmış "2024-2026-cı illərdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında turizmin inkişafına dair Yol Xəritəsi"nin bu istiqamətdə mühüm imkanlar ehtiva etdiyini bildirib.

Fuad Nağıyev "Şahdağ" Turizm Mərkəzinin timsalında rusiyalı turistlərin Azərbaycandakı qış və dağ-xizək mərkəzlərinə maraq göstərməsindən bəhs edərək, Rusiyanın "Roza Xutor" qış mərkəzinin də daxil olduğu Avrasiya Dağ Kurortları Alyansı çərçivəsində əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov pandemiyadan əvvəlki rəqəmlər tam bərpa olunmasa da, 2023-cü il statistikasına əsasən Azərbaycanın rusiyalı turistlərin üz tutduğu ölkələr sırasında birinci yerdə qərarlaşdığını, ikitərəfli turizm əlaqələrinin inkişafı üçün geniş potensialın mövcudluğunu diqqətə çatdırıb. O, həmçinin MDB ölkələrinə turlar təşkil edən Rusiya turoperatorların fəaliyyətini stimullaşdıracaq qanun layihəsi haqqında danışaraq qanun layihəsinin digər ölkələrlə yanaşı, Azərbaycanla da tərəfdaşlıq əlaqələrinin güclənməsinə təkan verəcəyini deyib.

Görüşdə Rusiya ilə müntəzəm olaraq həyata keçirilən birbaşa uçuşlar, Moskvada Azərbaycanın turizm nümayəndəliyinin açılması, Xəzər dənizində kruiz turizminin inkişafı potensialı, qış turizmi üzrə əməkdaşlıq, Azərbaycanın turizm imkanlarının Rusiyada tanıdılması, investisiya imkanları, aparılan geniş marketinq və tanıtım kampaniyası, turizm sənayesi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili və digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əllazi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

**Bismillahir Rəhmanir Rəhim**

Allahummə ləkə sumtu və bikə əməntu və ələykə təvəkkəltu və ələ rizqikə əftərtu və savməl-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil ələ əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə cə'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrənə biğinək, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə ələ kulli şəyin qədir.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ



2024 - 1445

**RAMAZAN AYININ TƏQVİMİ**

Bakı

| Həftənin günləri | Hicri ayı | Miladi ayı | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bazar ertəsi | 01 Ramazan | 11 Mart | 05:33 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:43 | 18:57 | 19:58 |
| Çərşənbə axş. | 02 Ramazan | 12 Mart | 05:31 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:45 | 18:59 | 19:59 |
| Çərşənbə | 03 Ramazan | 13 Mart | 05:30 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 18:46 | 19:00 | 20:00 |
| Cümə axş. | 04 Ramazan | 14 Mart | 05:28 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 18:47 | 19:01 | 20:01 |
| Cümə | 05 Ramazan | 15 Mart | 05:26 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 18:48 | 19:02 | 20:03 |
| Şənbə | 06 Ramazan | 16 Mart | 05:25 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 18:49 | 19:03 | 20:04 |
| Bazar | 07 Ramazan | 17 Mart | 05:23 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 18:50 | 19:04 | 20:05 |
| Bazar ertəsi | 08 Ramazan | 18 Mart | 05:21 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 18:51 | 19:05 | 20:06 |
| Çərşənbə axş. | 09 Ramazan | 19 Mart | 05:20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 18:52 | 19:06 | 20:07 |
| Çərşənbə | 10 Ramazan | 20 Mart | 05:18 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 18:53 | 19:07 | 20:08 |
| Cümə axş. | 11 Ramazan | 21 Mart | 05:16 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 18:54 | 19:08 | 20:09 |
| Cümə | 12 Ramazan | 22 Mart | 05:14 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 18:55 | 19:09 | 20:11 |
| Şənbə | 13 Ramazan | 23 Mart | 05:13 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 18:56 | 19:10 | 20:12 |
| Bazar | 14 Ramazan | 24 Mart | 05:11 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 18:57 | 19:11 | 20:13 |
| Bazar ertəsi | 15 Ramazan | 25 Mart | 05:09 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 18:58 | 19:12 | 20:14 |
| Çərşənbə axş. | 16 Ramazan | 26 Mart | 05:07 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 18:59 | 19:13 | 20:15 |
| Çərşənbə | 17 Ramazan | 27 Mart | 05:05 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:00 | 19:14 | 20:16 |
| Cümə axş. | 18 Ramazan | 28 Mart | 05:04 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:01 | 19:15 | 20:18 |
| Cümə | 19 Ramazan | 29 Mart | 05:02 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:02 | 19:17 | 20:19 |
| Şənbə | 20 Ramazan | 30 Mart | 05:00 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:03 | 19:18 | 20:20 |
| Bazar | 21 Ramazan | 31 Mart | 04:58 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:04 | 19:19 | 20:21 |
| Bazar ertəsi | 22 Ramazan | 01 Aprel | 04:56 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:05 | 19:20 | 20:22 |
| Çərşənbə axş. | 23 Ramazan | 02 Aprel | 04:55 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:07 | 19:21 | 20:24 |
| Çərşənbə | 24 Ramazan | 03 Aprel | 04:53 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:08 | 19:22 | 20:25 |
| Cümə axş. | 25 Ramazan | 04 Aprel | 04:51 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:09 | 19:23 | 20:26 |
| Cümə | 26 Ramazan | 05 Aprel | 04:49 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:10 | 19:24 | 20:27 |
| Şənbə | 27 Ramazan | 06 Aprel | 04:47 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:11 | 19:25 | 20:28 |
| Bazar | 28 Ramazan | 07 Aprel | 04:46 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:12 | 19:26 | 20:30 |
| Bazar ertəsi | 29 Ramazan | 08 Aprel | 04:44 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:13 | 19:27 | 20:31 |
| Çərşənbə axş. | 30 Ramazan | 09 Aprel | 04:42 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:14 | 19:28 | 20:32 |

**Şəvval ayının 1-i (10 Aprel) Fitr (Ramazan) bayramıdır.**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan "yaşıl enerji"nin həm də tranzitini həyata keçirəcək

**Azərbaycan neft, neft məhsulları və təbii qaz ixracatçısı olmaqla yanaşı, həm də elektrik enerjisi təchizatçısıdır. Bərpaolunan enerji layihələrinə uğurlu start verməsi bu istiqamətdə ölkəmiz qarşısında daha geniş perspektivlər açır.**



### Özbəkistan və Qazaxıstan bərpaolunan enerjilərini ölkəmiz üzərindən ixrac edəcəklər

2022-ci il dekabrın 17-də Buxarestdə Prezident İlham Əliyevin iştirakı ilə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması deyilənlərə aydın misaldır. Bu, elektrik enerjisinin Azərbaycandan keçməklə Mərkəzi Asiya ölkələrindən Avropaya nəqli üçün də imkan yaradır.

Hələ keçən ilin noyabr ayında Bakıda, İqtisadiyyat Nazirliyində keçirilən üçtərəfli görüşdə Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivləri müzakirə edilmişdi. Tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıq üzrə razılığa gəlmişlər. Azərbaycanın, Özbəkistanın və Qazaxıstanın iqtisadiyyat və energetika nazirlərinin iştirakı ilə keçirilən həmin görüşdə qeyd edilmişdi ki, üç ölkənin bərpaolunan enerjinin inkişafı və ixracı ilə bağlı yürütdüyü siyasət Azərbaycana Mərkəzi Asiya ölkələrindən Avropaya elektrik enerjisinin təchizi üzrə körpü rolunu oynamağa imkan verir. Belə ki, Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla birgə 4 QVt elektrik enerjisinin ixracına xidmət edəcək Xəzər dənizi-Qara dəniz-Avropa enerji dəhlizinin yaradılması üzərində işləyir. Daha 1 QVt "yaşıl enerji"nin Naxçıvan-Türkiyə-Avropa marşrutu ilə nəqli nəzərdə tutulub.

Görüşdə bildirilmişdi ki, Qazaxıstanın və Özbəkistanın həmin dəhlizlərə çıxış əldə etməsi bu ölkələrin elektrik enerjisi bazarlarının inkişafını, "yaşıl hidrogen"in, ammonyakın istehsalı və təchizatı üzrə əməkdaşlığı möhkəmləndirəcək, Orta dəhliz çərçivəsində enerji təhlükəsizliyi və "yaşıl layihələr" üzrə tərəfdaşlığı gücləndirəcək. Tərəflər Azərbaycanın region ölkələrinin enerji sisteminin gələcək inkişafı üzrə səylərin koordinasiyası və sinxronlaşdırılması ilə bağlı təşəbbüsünü, eləcə də təmiz elektrik enerjisinin üçüncü ölkələrin bazarlarına təchizatı istiqamətində qarşılıqlı səylərini təqdir etmişlər. Nazirlər ölkələrin bərpaolunan enerji üzrə potensialını qeyd edərək, alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı ilə bağlı layihəyə qoşulmağa hazır olduqlarını bildirmişlər və görüşün nəticəsi kimi birgə kommünike imzalanmışdı.

Həmin hadisədən bir ay sonra isə Bakıda Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında Mərkəzi Asiyadan ölkəmizin ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərinin müzakirə olunduğu üçtərəfli görüşün nəticəsi kimi Birgə Kommünike qəbul edildi. Sənədi Azərbaycanın iqtisadiyyat və energetika nazirləri, Özbəkistanın energetika, eləcə də investisiya, sənaye və ticarət nazirləri, Qazaxıstanın energetika naziri imzaladılar.

Birgə Kommünikedə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olundu. Sənədə əsasən, tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıqla bağlı razılığa gəldilər. Birgə Kommünikeyə uyğun olaraq regionda üçüncü ölkələr bu layihədə iştirak edə bilər.

Nazirlər bu dəfə də ölkələrin bərpaolunan enerji sahəsində potensialını vurğulayaraq, alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı layihəsinə qoşulmağa hazır olduqlarını bir daha qeyd etdilər. Bu kontekstdə Azərbaycanın enerji sisteminə inteqrasiya edəndən sonra Qara dənizin dibi ilə yüksəkgərginlikli xətlərin çəkilməsi imkanlarının araşdırılmasına maraq ifadə olundu. Onlar həmçinin təsdiqlədilər ki, "yaşıl enerji"nin ötürülməsi layihəsinin inkişafı iştirakçı ölkələrin iqtisadiyyatları və enerji sistemləri arasında əlaqələri daha da gücləndirəcək, milli enerji sənayelərinə yeni təkan verəcək.

Bu günlərdə Azərbaycanın energetika naziri Pərviz Şahbazovun Qazaxıstana səfəri çərçivəsində həmin ölkənin energetika naziri Almasadam Satkaliyev ilə görüşü zamanı da enerji sahəsində əməkdaşlığın xüsusi rolu qeyd edilib. Enerji əlaqələrinin karbohidrogen sektoru ilə yanaşı, bərpaolunan enerji üzrə genişləndirilməsinin Hökumətlərarası Komissiyanın fəaliyyətində prioritet istiqamətlərdən olduğu bildirilib. Elektrik enerjisinin Mərkəzi Asiyadan Azərbaycana, buradan isə Avropaya ixracı ilə bağlı Azərbaycan-Qazaxıstan-Özbəkistan arasında üçtərəfli görüş zamanı əldə edilmiş razılaşmaya uyğun işlərin gedişatı da nəzərdən keçirilib. Qafqaz regionu və Mərkəzi Asiyanın enerji sistemlərini sualtı kabel vasitəsilə əlaqələndirən layihənin texniki-iqtisadi əsaslandırma (TİƏ) prosesinə başlanması məqsədilə görüləcək tədbirlər müzakirə edilib.

Bundan başqa, Azərbaycanın və Qazaxıstanın energetika nazirlikləri arasında enerji sahəsində strateji tərəfdaşlığa dair saziş layihəsinin hazırlanması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb. Eləcə də Qazaxıstan neftinin Azərbaycandan keçməklə çoxistiqamətli tranziti üzrə praktiki addımlar atılması, bu xüsusda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri ilə illik 1,5 milyon ton neftin nəqli ilə bağlı razılaşmanın həyata keçirilməsi, tədarük həcminin tədricən artırılması istiqamətində SOCAR və "KazMunayQaz" arasında əməkdaşlıq yüksək qiymətləndirilib.

Deyilənlərə onu əlavə edək ki, Qazaxıstan BTC layihəsinin həyata keçirilməsində Azərbaycanı daim dəstəkləyib. O cümlədən 1999-cu ildə İstanbul şəhərində kəmərin marşrutunu müəyyənləşdirən sənədi Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ prezidentləri ilə birgə Qazaxıstanın dövlət başçısı da imzalamışdı. Bu kəmərə xeyli müddətdir Qazaxıstan nefti də vurulur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Dünya Bankı ilə gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib

### Bankın Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani DOST Mərkəzi ilə tanış olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyində Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani ilə görüş olub.**

Görüşdə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Rolande Prays, ölkə meneceri Stefanie Stallmeister və başqaları iştirak ediblər.

A.Bassani və digər qonaqlar əvvəlcə DOST Agentliyinin 1 saylı DOST Mərkəzi ilə tanış olublar. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə yaradılan DOST Agentliyi və DOST mərkəzləri barədə məlumat verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının əmək, məşğulluq, sosial müdafiə sahələrində 159 xidmətin vahid platformadan, "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasına imkan yaratdığı vurğulanıb.

DOST mərkəzlərində ötən dövrdə 2,1 mln. nəfərə xidmət göstərildiyi, bu xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsinin 98,2 faiz olduğu qeyd edilib. DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyi, artıq 20-dən çox beynəlxalq mükafatla təltif edildiyi, bir sıra ölkələrin də bu təcrübənin tətbiqində maraqlı olduğu diqqətə çatdırılıb. Qonaqlar həmçinin nazirlik və Dünya Bankının birgə icra etdiyi "Məşğulluğa Dəstək Layihəsi"nin bir qrup iştirakçısı ilə görüşüblər.

Daha sonra DOST Agentliyində keçirilən görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahələrində aparılan islahatları və əldə olunan nailiyyətləri diqqətə çatdırıb.

Bu islahatlar prosesində Dünya Bankı ilə əməkdaşlığa xüsusi önəm verildiyi vurğulanıb. Birgə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"nin 22 min işsiz şəxsin kiçik biznesə çıxışına dəstək məqsədi daşıdığı, artıq 14 min işsiz şəxsin bu layihənin dəstəyi ilə kiçik biznesini qurduğu qeyd edilib.

Habelə əmək qanunvericiliyinin, əlilliyin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, övladlığagötürmə sahəsində potensialın gücləndirilməsi və s. istiqamətlərdə birgə layihələrin əhəmiyyətindən bəhs olunub. Həssas qrupların əmək bazarına çıxışının dəstəklənməsi üçün icra olunan aktiv məşğulluq proqramları barədə məlumat verilib.

A.Bassani nazirliyin Dünya Bankı ilə fəal əməkdaşlığından məmnun olduğunu, ölkəmizdə aparılan sosial islahatlarla bağlı müsbət fikirlərini diqqətə çatdırıb.

Görüşdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Dünya Bankının mövcud əməkdaşlıq gündəliyi və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

## "Yaşıl iqtisadiyyat" forumunun keçirilməsi barədə anlaşma memorandumu imzalanmışdır

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Gəncə Dövlət Universiteti (GDU), Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU), Mingəçevir Dövlət Universiteti (MDU) və Azərbaycan Texnologiya Universiteti (ATU) arasında Gəncə "Yaşıl iqtisadiyyat" forumunun keçirilməsi barədə anlaşma memorandumu imzalanmışdır.**

Onlayn formatda keçirilən görüşdə Azərbaycan Respublikası Birinci Vitse-Prezidentinin Katibliyinin baş məsləhətçisi Elmar Məmmədov, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov, UNEC-in rektoru Ədalət Muradov, GDU-nun rektoru Yusif Yusibov, ADAU-nun rektoru Zəfər Qurbanov, MDU-nun rektoru Şahin Bayramov və ATU-nun rektoru vəzifəsini icra edən Yaşar Ömərov çıxış etmişlər.

Çıxışlarda Azərbaycanda ilk dəfə reallaşdırılacaq bu forumun əsas hədəfinin iqlim dəyişmələri ilə mübarizə, "yaşıl iqtisadiyyat"a keçid, o cümlədən "ədalətli yaşıl keçid" və "yaşıl artım" - "yaşıl iqtisadiyyat" - "dayanıqlı inkişaf" üçlüyünün reallaşdırılması üzrə dünya təcrübəsinin öyrənilməsi, eləcə də bu istiqamətdə insan kapitalının inkişaf etdirilməsi, professor-müəllim heyəti və tələbələr tərəfindən elmi tədqiqatların aparılması, "yaşıl startap"ların yaradılması, "yaşıl sektor"ların inkişafı, dövlət-özəl "yaşıl tərəfdaşlığı"nın təşviq edilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, habelə "ağıllı yaşıl keçid"in müəyyən edilməsi işinə töhfə verməkdən ibarət olduğu diqqətə çatdırılmışdır.

Sonra ümumi tələbə sayı 40 minə yaxın olan 5 tərəfdaş universitetin rektorları tərəfindən Gəncə "Yaşıl iqtisadiyyat" forumunun təsis edilməsinə dair anlaşma memorandumu imzalanmışdır. Anlaşma memorandumuna əsasən, Gəncə "Yaşıl iqtisadiyyat" forumu 5 İyun Ümumdünya Ətraf Mühit Günündə öz işinə başlayacaq və hər il 5-7 iyun tarixlərində Gəncədə təşkil olunacaq. Hər il bir iştirakçı universitet növbə ilə foruma sədrlik edəcək və təşkilatçılıq funksiyasını həyata keçirəcək.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ilk forumun Gəncə Dövlət Universiteti tərəfindən təşkil edilməsi qərara alınmışdır. Universitet tərəfindən "Yaşıl inkişaf xəbərləri" bülleteninin də nəşri nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Kəndə... innovasiya gəlir

### Aqrar sektorda müasir texnologiyaların tətbiqi günün tələbidir

**Yer üzündə əhalinin sayı 8 milyarda çatıb. Xüsusən son illər bu artımın dinamikası daha yüksək olub. Əvvəllər əhalinin artımı Asiya və Afrika ölkələrində müşahidə edilirdisə, indi müxtəlif fərqlərlə dünyanın hər yerində əhalinin sayı çoxalmaqdadır.**

Bu isə dünyada bir sıra problemlər yaradır ki, onlardan başlıcası ərzaqla təminatdır. BMT-nin hesablamalarına görə, dünyada aclıq çəkən insanların sayı milyonlarladır. Xüsusilə Afrikanın və Asiyanın kasıb ölkələrində qida çatışmazlığından uşaqlar arasında ölüm sayı sürətlə artır. O səbəbdən BMT-də dünya əhalisinin minimum səviyyədə ərzaqla təminatı ən çox müzakirə olunan məsələlərdən birinə çevrilib. Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən müxtəlif layihələr icra olunmasının da əsas səbəbi budur. Bir sözlə, hazırda qlobal səviyyədə ən aktual məsələ sürətlə artan əhalinin ərzaqla təminatıdır.

Bu üzdən son dövrlər aqrar sahədə məhsuldarlığı artırmaq üçün innovativ üsullardan, yüksək texnologiyalardan istifadə olunur. Hazırda bu sahədə çalışan alimlərin məqsədi az torpaq sahəsindən yüksək məhsul götürməkdir. Başqa yol yoxdur. Çünki insanlar tərəfindən torpağın əsrlər boyu amansızcasına istismar edilməsi yararlı torpaqların azalmasına səbəb olub.

İndi həmin torpaqların bərpası yönündə müxtəlif tədbirlər görülməklə yanaşı, əkin zamanı torpağa ziyan vermədən daha çox məhsul götürmək üçün yeni üsullardan istifadəyə üstünlük verilir. Azərbaycanda da son vaxtlar aqrar sektorda yüksək məhsul götürməyə imkan verən texnika və texnologiyalardan daha çox istifadə olunmağa başlanıb. Ölkəmiz bu sahədə əsasən Türkiyə, İsrail, Pakistan və digər ölkələrlə yaxından əməkdaşlıq edir.

Dövlət kənd təsərrüfatında istifadə edilən yüksək texnologiyaların bahalığını nəzərə alaraq onların fermerlər üçün əlçatan olması məqsədi ilə bir sıra tədbirlər görür. Bu tədbirlərdən sonra xüsusən taxılçılıqla məşğul olan fermerlər suçiləyici avadanlıqlar almağa başlayıblar. Damcılama üsulu sahələrdən yüksək məhsul götürməyə imkan verməklə bərabər, torpağa ziyan vurmur, yəni torpağın məhsuldarlığının qorunmasını təmin edir.

Dünyada torpaqdan bol məhsul götürmək üçün idarəetmənin təkmilləşdirilməsinə böyük önəm verilir. Bu sahədə bütün informasiyaların elektron qaydada toplanması yeri gələndə lazımi tədbirlərin görülməsinə imkan yaradır. Odur ki, kənd təsərrüfatının rəqəmsallaşdırılmasından bütün inkişaf etmiş ölkələrdə geniş istifadə olunur. Artıq ölkəmiz də bu sistemə keçib. Kənd təsərrüfatının rəqəmsallaşdırılması deyiləndə üç əsas istiqamət nəzərdə tutulur. Birincisi, idarəetmənin, ikincisi, xidmətlərin, üçüncüsü isə istehsal proseslərinin rəqəmsallaşdırılmasıdır. Bu prosesi həyata keçirən Kənd Təsərrüfatı Nazirliyi sistemində inzibati idarəetmə sahəsində işlər tamamilə rəqəmsallaşdırılaraq elektron qaydada həyata keçirilir. Yeni mexanizm həmçinin əvvəllər mövcud olan sui-istifadə hallarını da aradan qaldırır.



Bu gün Azərbaycanda kənd təsərrüfatının inkişafı prioritet istiqamət kimi müəyyən edilib. Məhz bu siyasət nəticəsində ölkəmizdə aqrar sahə öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının rolunun genişləndirilməsi, aqrar sektora dövlət dəstəyinin və kənd təsərrüfatı sahəsində aparılan islahatların davamı, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi, aqrar xidmətlərin elektronlaşdırılması, əlverişli investisiya mühiti bu mərhələnin əsas istiqamətləridir.

Ölkəmizin aqrar sektorunun beynəlxalq əlaqələrinin coğrafiyası da ildən-ilə genişlənir. Bu yaxınlarda Azərbaycan ilə Braziliya arasında aqrar sahədə əməkdaşlıq və hüquq-müqavilə bazasının yaradılması, kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin artırılması, aqrar sahədə ən müasir texnologiyaların transferi, heyvandarlıq sahələrində əməkdaşlığın gücləndirilməsi, aqrar sektorda elmi-tədqiqat sahəsində təcrübə proqramlarının həyata keçirilməsi məsələləri müzakirə edilib. Azərbaycanın kənd təsərrüfatı məhsullarının Braziliyaya ixracının genişləndirilməsi məsələsi də müzakirə mövzusu olub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "SOCAR Türkiyə" Bursa və Kayseridə qazpaylayıcı şəbəkələrə əlavə sərmayələr yatıracaq

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) törəmə kompaniyası olan "SOCAR Türkiyə" qardaş ölkənin Bursa və Kayseri vilayətlərində qazpaylayıcı şəbəkələrə əlavə sərmayələrin yatırılmasını planlaşdırır.**

Bu barədə jurnalistlərə "SOCAR Türkiyə"nin Təbii qaz şöbəsinin rəhbəri Fuad İbrahimov məlumat verib. AZƏRTAC xəbər verir ki, onun sözlərinə görə, yeni sərmayələr sayəsində həmin regionda paylayıcı qaz xətlərinin uzunluğu ilin sonunda 14 min 770 kilometrə çatacaq.

F.İbrahimov xatırladıb ki, "SOCAR Türkiyə" kompaniyasının Təbii qaz şöbəsi 2019-cu ildə yaradılıb və bu günədək "Bursagaz" və "Kayserigaz" şirkətləri ilə topdan tədarük və təbii qazın paylanılması üzrə kontraktlar imzalanıb. "Bu kontraktlar əsasında həmin iki vilayətdə 1,9 milyon abonentə xidmət göstəririk. Onların 1,2 milyon nəfəri təbii qazı Türkiyənin ən böyük dördüncü şirkəti olan "Bursagaz"dan alır", - deyə şöbə müdiri əlavə edib.

"SOCAR Türkiyə" kompaniyasının nümayəndəsi qeyd edib ki, onun təmsil etdiyi şirkət 2019-2023-cü illərdə "Bursagaz" və "Kayserigaz"a təqribən 170 milyon dollar sərmayə yatırıb. O, həmçinin diqqəti Türkiyənin qazpaylayıcı şəbəkələrinin genişləndirilməsi templərinə çəkib. F.İbrahimov deyib: "2023-cü ilin sonuna olan məlumata görə, Türkiyə əhalisinin 84 faizi təbii qazdan istifadə edir, ümumilikdə isə son on ildə bu ölkədə qaz abonentlərinin sayı ildə orta hesabla 1 milyon nəfər artıb".

# "Qarabağ" qələbəni son dəqiqələrdə əldən verdi

**UEFA Avropa Liqası**
**1/8 finalın ilk oyunu**
**"Qarabağ" (Azərbaycan) - "Bayer" (Almaniya) - 2:2**

**Qol:** Yassin Benzia, 26 (1:0), Juninyo, 45+2 (2:0), Florian Virtz, 70 (2:1), Patrik Şik, 90+2 (2:2)

**Hakimlər:** Benoit Bastian, Hiçam Zakrani, Aurelien Bertomieu (Fransa)

**Bakı. Tofiq Bəhramov adına Respublika Stadionu**



Dünən "Qarabağ" Avropa Liqasının 1/8 finalının ilk oyununda Tofiq Bəhramov adına Respublika Stadionunda Almaniya "Bayer Leverkuzen"ini qəbul etdi.

Matç 2:2 hesabı ilə başa çatıb. "Qarabağ" inamlı oyun nümayiş etdirib və bu mövsümün məğlubedilməz komandası olan "Bayer"ə ilk hissədə 2 qol vurub. Ancaq Almaniya təmsilçisi ikinci hissədə hesabı bərabərləşdirə bilib.

Hazırda Bundesliqada ən yaxın izləyicisi - ardıcıl 11 mövsümün çempionu "Bavariya"nı 10 xal qabaqlayaraq lider olan "Bayer" həm də bu mövsümün məğlubedilməz komandasıdır. Leverkuzenlilər bu matça kimi 34 oyundur uduzmurdular.

Xatırladaq ki, "Bayer"lə "Qarabağ" Avropa Liqasının qrup mərhələsində də rəqib olublar. Komandaların Leverkuzendəki oyununda "Bayer" 5:1, Bakıdakı matçda isə 1:0 hesabı ilə "Qarabağ"a qalib gəlib. "Bayer" qrupdan lider, "Qarabağ" isə 2-ci yerin sahibi kimi çıxıb.

Komandalar arasında cavab matçı martın 14-də Almaniyada keçiriləcək.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə
2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

# Qidaların dondurulması: nələrə diqqət yetirilməlidir?

**Qidaların saxlanması və mühafizəsi üçün ən çox istifadə olunan üsul onların dondurulmasıdır. Dondurulma vasitəsilə ərzaqların təbii dadının, qida dəyərinin, həmçinin görünüşünün yaxşı qorunması təmin edilir. Beləliklə, mövsümündə tədarükünü etdiyimiz və soyuducuda dondurduğumuz meyvə, tərəvəz və ət məhsullarından ilboyu faydalanırıq.**



Mütəxəssislər bildirirlər ki, dondurulmuş tərəvəz və meyvələrdə təzə qidalarla eyni miqdarda vitamin olur. Belə ki, ərzaqlar müəyyən temperaturda dondurulduqda və saxlanıldıqda tərkiblərindəki mikroorqanizmlərin inkişafı dayanır, fermentlərin fəaliyyəti və kimyəvi reaksiyaların sürəti azalır. Ancaq bu zaman ən önəmli məsələ hansı qidanın hansı temperaturda dondurulmasıdır.

## Dondurulma sürəti qidanın dadına təsir edir

Qida məhsulunun növündən, tərkibindən, proses zamanı istifadə edilən ətraf mühit şəraitindən asılı olaraq dondurulma müxtəlif sürətlə baş verə bilər. Müasir şoklama texnologiyalarına sahib soyuducular sayəsində ərzaqlar daha keyfiyyətli qorunur. Çünki qidaların dondurulma sürəti onların dadına birbaşa təsir edir. Qida donduqda, daxilindəki və xaricindəki rütubət buz kristalları əmələ gətirir. Ərzaq nə qədər yavaş donursa, buz kristalları da bir o qədər böyük olur. Buz kristalları isə qidanın quruluşuna və dadına böyük zərər vurur.

Mütəxəssislər bildirirlər ki, düzgün şəkildə dondurulan qidaların orqanizmə faydası var. Ancaq bunun üçün dondurmadan əvvəlki və sonrakı müddətdə lazımi qaydalara riayət etmək lazımdır. Məsələn, buzluğa qoyulan qida yaxşı sarınmadıqda açıqda qalan hissəyə hava keçərək don yanığına səbəb olur. Bu hissədə həm quruluş olaraq pozulma baş verir, qida dəyərində itki olur, həm də dadında dəyişiklik yaranır.

Meyvə və tərəvəzlərin, ət və çörəklərin donunun açılması bir-birindən fərqlənir. Tərəvəzləri bişirərkən onları suya donu açılmadan atmaq lazımdır. Əgər donu açılaraq bişirilərsə, hüceyrə quruluşları pozulacaq və qida dəyəri azalacaq. Donmuş tərəvəzlərin bişmə müddəti təzəyə nisbətdə üç dəfə azdır.

Dondurulmuş ətlərin bişirilmədən əvvəl mütləq donu açılmalıdır. Bunun üçün ən çox istifadə olunan metodlardan biri onları otaq temperaturunda saxlamaqdır. Bu isə olduqca ziyandır. Çünki bu zaman mikroorqanizmlər sürətlə çoxalaraq ətin mikrobioloji yükünün artmasına səbəb olur. Əti soyuducunun dondurucu bölməsindən çıxarıb digər bölməsinə qoymaq ən düzgün üsuldur. Ətin donunun açılması üçün istifadə olunan metodlardan biri də onu isti suya salmaq, digəri isə mikrodalğalı sobada donunu açmaqdır. Ancaq sonuncu üsul nə qədər müasir olsa da, mütəxəssislər tərəfindən tövsiyə edilmir. Dondurulmuş çörək və un məmulatları isə otaq temperaturunda istifadəyə hazır vəziyyətə gətirilə bilər.

## Təkrar dondurmaq tövsiyə edilmir

Hər bir dondurulmuş qida məhsulunun növündən asılı olaraq saxlama müddəti var. Ərzaqlar mənfi 18-dən 35 dərəcəyə qədər dondurula bilər. Dondurulmuş məhsullarda bəzi proseslər ləngiyir, lakin tamamilə dayanmır. Buna görə də mal, dana və quzu ətini mənfi 18-20 dərəcədən yüksək temperaturda və 6 aydan çox olmadan saxlamaq tövsiyə olunur. Yağsız balıqları 8 aya qədər, yağlı balıqları isə 4 aya qədər saxlamaq məsləhətdir.

Kərə yağı növündən asılı olaraq, dəyişə bilən donma müddəti olan qidalardan sayılır. Duzlu kərə yağı mənfi 18 dərəcə və ya daha aşağı temperaturda 12 aya qədər, duzsuz yağ isə yalnız 6 aya qədər saxlanıla bilər. Çörək və tort kimi xəmir məhsulları 18 dərəcə və ya daha aşağı temperaturda 3 aya qədər saxlanılır, bu müddətdən sonra onların keyfiyyəti azalır.

Balığın növündən asılı olaraq, soyuducuda qalma müddəti də dəyişir. Skumbriya, kefal, qızılbalıq və ton balığı kimi yağlı balıqları mənfi 18 dərəcə və ya daha aşağı temperaturda dondurucuda 2-3 ay saxlamaq olar. Yağsız balıqlardan olan mezgit balığı, treska və halibut dondurucuda 6-8 ay saxlanıla bilər. Təzə xərçəng əti və omar 24 aya qədər, kalamar 6-18 ay donudurula bilər. Midyə, istiridyə və diri xərçəng kimi dəniz məhsulları isə ümumiyyətlə dondurulmamalıdır.

Gündəlik rasionumuzda çox istifadə etdiyimiz toyuğun saxlanma şəraitinə xüsusilə diqqət yetirilməlidir. Bütöv toyuq dondurucuda tam bir il, doğranmış tikələri isə 9 ay qala bilər. Bişmiş ətləri dondurulma müddəti isə 2-6 aydır.

Qəribəsi odur ki, pendirləri də dondurucuya qoymaq olar. Çedar və parmezan kimi sərt pendirlər dondurucuda yaxşı şəkildə qorunsa da, yumşaq pendirlərin quruluşu əridikdən sonra zədələnə bilər. Pendirlərin dondurucuda saxlanma müddəti ümumiyyətlə 6 aydır.

Balqabaq, brokoli və gül kələmi kimi tərəvəzlər 8-12 ay, banan, gilas, albalı, alma, şaftalı və gavalı kimi meyvələr 9-12 ay, portağal isə 3 ay dondurula bilər.

Bəzi qidalar tərkibinə uyğun olaraq ümumiyyətlə dondurulmaq üçün uyğun deyil. Tərkibində yüksək miqdarda su olan kahı, göyərtilər, pomidor və xiyar kimi tərəvəzlər dondurucudan çıxarıldıqdan sonra istifadə edildikdə yararsız vəziyyətə düşür. Mayonez və krem kimi məhsullar əriməyə başlayanda tərkibindəki inqrediyentlər bir-birindən ayrılır.

Bütün bunları nəzərə alaraq mütəxəssislər istehlakçılara qida məhsullarını dondurucuya qoyduqdan əvvəl və sonra məhsulların tərkibini bilməyi, müvafiq saxlanma qaydalarına riayət etməyi və donu açılmış məhsulu yenidən dondurmamağı tövsiyə edirlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Vyanada görkəmli rəssam Çingiz Fərzəliyevin "Dünyanın siması" adlı fərdi sərgisi açılıb

**Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli rəssam, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, "Şöhrət" və "Şərəf" ordenli Çingiz Fərzəliyevin "Dünyanın siması" adlı fərdi sərgisinin açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, ekoloji tarazlığın qorunmasına, ətraf mühitin sağlamlaşdırılmasına həsr edilmiş sərgi Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunub.

Sərgini giriş sözü ilə açan Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova bu yaxınlarda 80 yaşı tamam olan Çingiz Fərzəliyevin yaradıcılıq fəaliyyətindən danışıb.

Bildirilib ki, Ç.Fərzəliyev bir rəssam kimi nəinki Azərbaycanda, həm də ölkəmizdən uzaqlarda tanınır. Məhz buna görə onun təltifləri sırasında müxtəlif ölkələrin nüfuzlu orden və mükafatları yer alır. Onların arasında Avstriyanın ali mükafatı da var. Ç. Fərzəliyev Azərbaycan ilə Avstriya arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə Avstriyanın bu sahə üzrə ali mükafatı ilə təltif edilib.

L. Qasımova diqqətə çatdırıb ki, Bakı və Moskvada rəngkarlıq üzrə təhsil almış Ç.Fərzəliyev tədris prosesi ilə məşğul olub, 2010-cu ildən 2023-cü ilədək Azərbaycan Milli İncəsənət Muzeyinin rəhbəri kimi çalışıb. XX əsr Azərbaycanın təsviri sənətinin 45 görkəmli nümayəndəsinin yaradıcılığını əks etdirən "Sərvət" silsiləsindən 36 kitab isə onun Azərbaycan mədəniyyətinə verdiyi önəmli töhfələr arasında yer alır.

Həmçinin diqqətə çatdırılıb ki, tədbirin bədii hissəsində çıxış edəcək Murad Adıgözəlzadənin bu yaxınlarda 50 illik yubileyi qeyd edilib və bu tədbirdə iki yubilyarın iştirakı böyük məmnunluq doğurur.

Çingiz Fərzəliyev çıxışında bu sərginin təqdimatı üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib. O qeyd edib ki, "Dünyanın siması" sərgisində toplanan əsərlərin mahiyyəti dünyamızı qorumağa, bəşəriyyəti ətraf mühitlə bağlı daha diqqətli olmağa çağırışdan ibarətdir. Müasir dövrümüzdə ekologiyanın və ətraf mühitin təmizliyinə diqqətin artırılmasını müsbət qiymətləndirən müəllif Azərbaycanın bu istiqamətdə mühüm rol oynayan ölkələrdən biri olduğunu deyib.

Sonra Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadə musiqili proqramla çıxış ediblər.

Konsertdən əvvəl bildirilib ki, Ç.Fərzəliyevin yaradıcılığına hədiyyə xarakteri daşıyan musiqili proqramın tərtibatında ana təbiət və təbiət gözəlliklərinin tərənnüm olunduğu əsərlərə xüsusi yer verilib.

Konsertdə həmçinin opera müğənnisi Olqa Çervinski tanınmış bəstəkarların romanslarını ifa edib. Eyni zamanda Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Aziz Əlizadə, Vaqif Mustafazadə, Fərhad Bədəlbəyli, Mixail Qlinka və Sergey Raxmaninovun əsərləri yer alıb.

Sərgi aprelin sonunadək nümayiş etdiriləcək.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan brezent, divan üzlüyü və örtük materiallarının satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 mart 2024-cü il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
Dəniz Nəqliyyatı Donanmasının inzibati binasının yanğın xəbərverici siqnalizasiya sisteminin quraşdırılması (mal-material və işçiliklə birlikdə) işlərinin satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 mart 2024-cü il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Əliabbas Salahzadəyə əzizi

**RƏFİQƏ SALAHZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Əliabbas Salahzadəyə əzizi

**RƏFİQƏ SALAHZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Əliabbas Salahzadəyə əzizi

**RƏFİQƏ SALAHZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baş Prokurorluğun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Şahin Şükürova atası

**ALMAS MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4298
Sifariş 515

Qiyməti 60 qəpik